№ 267 ISSN 1027-3875 15 aprel 2009

KHAZAR VIEW

XƏZƏR XƏBƏR



ELMİ-KÜTLƏVİ, BƏDİİ-PUBLİSİSTİK TOPLU

www.khazar.org

ELMİ-KÜTLƏVİ,
BƏDİİ-PUBLİSİSTİK
TOPLU

1995-ci ilin
yanvarından ayda 2 dəfə çıxır

Təsisçi:
XƏZƏR UNİVERSİTƏSİ

Baş redaktor:
Hamlet İSAXANLI

Baş redaktor müavini:
Əlirza BALAYEV

Redaksiya heyəti:
Camal MUSTAFAYEV
Tofiq ABASQULIYEV
Nurəddin RZAYEV
Cəmil HƏSƏNLİ
Bəhlul ABDULLA
Nizami CƏFƏROV
Əfqan ABDULLAYEV
İsmət ƏHMƏDOV

Rəssam:
Rafiq ƏBDÜLRƏHİMOV

Kompüter tərtibatçısı:
Əminə M.RZAQIZI
Fotomüxbir:
Könül ƏLİYEVA

Ünvanımız:
Bakı, Məhsəti küçəsi 11,
("Neftçilər" metrosunun yanı)
Faks: 498-93-79
Telefon: 421-79-16
421-10-93

Şəhadətnamə: 255
İndeks: 67178
Sifariş: 190
Tiraj: 3000

Müəlliflərlə
redaksiyanın mövqeyi
üst-üstə düşməyə bilər
Əlyazmalar geri qaytarılmır
Xəzər Universitəsi
mətbəəsində çap edilmişdir

SCIENTIFIC-POPULAR
LITERARY-PUBLICISTIC
COLLECTION

It has been publishing twice
a month since January, 1995

Founder:
KHAZAR UNIVERSITY

Editor-in-chief:
Hamlet ISAXANLI

Associate editor:
Alirza BALAYEV

Editorial member:
Jamal MUSTAFAYEV
Tofiq ABASQULIYEV
Nurəddin RZAYEV
Jamil HASANLI
Bahlul ABDULLA
Nizami JAFAROV
Afgan ABDULLAYEV
İsmat AHMADOV

Design by:
Rafig ABDULRAHIMOV

Computer graphics:
Amina M. RZAQIZI
Photoreporter:
Konul ALIYEVA

Address:
11 Mahsati str., Baku,
(near the "Neftchilar" metro)
Fax: 498-93-79
Phone: 421-79-16
421-10-93

Certificate: 255
Index: 67178
Order: 190
Copies: 3000

The opinions of authors
and editors
could be independent
Manuscripts are not returned
Published by
Khazar University Press

OXUYUN
Bu nömrədə



KHAZAR UNIVERSITY RECTOR
HAMLET ISAXANLI VISITS TO JAPAN 4

UĞURLU YOLLA –
UĞURLU ADDIMLAR 8

QƏBUL İMTAHANLARINDA TOPLADIĞI BAL
TƏLƏBƏNİN SƏVİYYƏSİ HAQQINDA İLKİN FİKİR
YÜRÜTMƏK ÜÇÜN ƏSAS MƏNBƏDİR 10





Elmira ƏLİYEVA
"NƏ GÜMAN EYLƏMİSƏN ONDAKI
TİLSİMLƏRİ SƏN..." 12

RİÇARD NİKSON
MÜƏLLİMLƏR 22





Cahangir Suraxanlı
MÜCRÜ 28

USAQ
DÜNYASI 34

UNİVERSİTƏ XƏBƏRLƏRİ

KHAZAR UNIVERSITY RECTOR HAMLET ISAXANLI VISITS TO JAPAN

Prof. Hamlet Isaxanli, President of Khazar University visited Japan on 8-19th of March, 2009.

He met with the senior officials (see their names below) of the following state and private institutes and universities, and discussed the perspectives of partnership on joint researches, student and faculty exchanges.



Japan Institute of International Affairs, Tokyo
Fujiwara Toshyuoki, Executive Director



GRIPS (National Graduate Institute for Policy Studies), Tokyo
Tatsuo Hatta, President



Sasakawa Peace Foundation, Tokyo
Chan Woo Lee, Director of Office of Regional Funds



Osaka University
Prof. Kiichiro Tsuji, Ph.D., Trustee, Vice-President; Director of Office for International Planning and Programs
Prof. Tomoko Arikawa, International Student Center
Prof. Koichi Setoyama, Associate Professor of International Student Center
Aya Imura, Administrative Staff of International Affairs Division



Ritsumeikan Asia Pacific University, Beppu-shi

Monte Cassim, President; Vice-Chancellor of The Ritsumeikan Trust

Prof. Edgar Porter, Dean of Academic Affairs

Prof. Yasuo Uchida Dean of Planning and Development Division



Doshisha University, Kyoto

Prof. Eiji Hatta, PhD, President

Prof. Nobuhiro Tabata, Vice-President

Toru Nishioka, Administrative Director of the Office of International Center

Nobuyuki Yamauchi, Vice-Dean of the Organization for Promotion of International Cooperation; Dean of the Center for Japanese Language and Culture; Professor of Faculty of Culture and Information Science



Ritsumeikan University, Kyoto

Masahisa Koyama, Executive Director of the International Affairs Division; Professor, College of International Relations

Makoto Max Sagane, Deputy Managing Director, Division of International Affairs





Nagoya University

Prof., Dr.ENG. Takashi Miyata, Trustee and Vice-President of the International Exchange and Technology Transfer

Futamura Hisanori, Professor, Dean of Graduate School of International Development

Prof. Hisaye Nakanishi, Graduate School of International Development

Prof. Akihiko Watanabe, Director of Promoting Entrepreneurship; Office of Technology Transfer

MEETING WITH OFFICIALS OF WORLD TRADE ORGANIZATION





On April 2, 2009 two officials of Secretariat of World Trade Organization (WTO) visited Khazar University accompanied by the representative of the Ministry of Foreign Affairs of Azerbaijan Republic Elmar Mammadov. Director of the Institute of Politics Baba Bayramli welcomed the guests and introduced them to Khazar University students. WTO official Prof. John Hancock gave a lecture on the topic "History and Activity Principles of WTO and the Global Economic Crisis". Students put questions to the lecturer and made their comments on the topic issues.

After the lecture, the guests have been received by the Founder and President of Khazar University Prof. Hamlet Isaxanli. The parties discussed the perspectives of future cooperation.

XƏZƏR UNİVERSİTƏSİNİN YENİ SAYTLARININ TƏQDİMATI



Aprelin 3-də Xəzər Universitəsində universitənin yeni yaradılmış saytlarının təqdimat mərasimi keçirildi. Mərasimdə Xəzər Universitəsinin rektoru, professor Hamlet İsaxanlı, müəllim və tələbələr iştirak edirdilər.

Saytların yaradılması ideyası Xəzər Universitəsini bitirərək universitədə çalışan məzunlarla Hamlet İsaxanlının yanvar ayında görüşü zamanı meydana çıxmışdı. Universitənin Azərbaycanda və başqa ölkələrdə çalışan məzunları ilə universitənin daimi ünsiyyətini təmin etmək məqsədilə virtual əlaqələrin qurulması qərara alınmışdı.

Saytların müəllifi – Xəzər Universitəsinin Humanitar və sosial elmlər fakültəsinin jurnalistika ixtisası üzrə IV kurs tələbəsi Alik Əlioğlu saytları təqdim edərək, onların barəsində məlumat verdi. Qeyd etdi ki, 1 portal daxilində 4 yeni sayt açılmışdır. Onlardan biri – **Khazaru.Net** Xəzər universitəsi məzun, tələbə və müəllimlərinin birbirilə daim əlaqə saxlamasını təmin etmək üçün nəzərdə tutulub.





Digər sayt – **Radio.Khəzaru.Net** Xəzər Universitəsinin İnternet Radiosu kimi fəaliyyət göstərəcək. Hələlik həmin radionun ABŞ radiolarından birinə yönləndirildiyini deyən Alik Əlioğlu tezliklə həmin radioda Xəzər Universitəsinin öz verilişlərinin yayımlanacağını qeyd etdi. Bildirdi ki, efirə gedən verilişlərin hamısı saytın arxivində saxlanılacaq və istənilən zaman sayta daxil olan şəxs həmin verilişləri dinləmək imkanına malik olacaqlar. **Tv.Khazaru.Net** saytı isə daha maraqlı bir funksiyanı yerinə yetirir. Bu sayt vasitəsilə tələbə və məzunlar ABŞ-ın CNN, BBC, Discovery kimi ən məşhur telekanallarını abunə haqqı ödəmədən, heç bir peyk antenasına qoşulmadan izləyə biləcəklər.

Sonuncu – **Magazine.Khazaru.Net** saytı isə Xəzər Universitəsinin elektron jurnalı olacaq. Burada maraqlı xəbərlər, məqalələr, tələbələrin yaradıcılığından nümunələr və s. yazılar veriləcək. Məlumatını bitirəndən sonra Alik Əlioğlu saytlara aid sualları cavablandırdı.

Mərasimdə Xəzər Universitəsinin rektoru, professor Hamlet İsaxanlı yeni saytların təkmilləşdirilməsi ilə əlaqədar tövsiyələrini söylədi və saytların müəllifi Alik Əlioğluna təşəkkürünü bildirdi.

YAPONİYA UNİVERSİTETLƏRİ İLƏ ƏMƏKDAŞLIQ PERSPEKTİVLƏRİ

Aprelin 11-də Xəzər Universitəsinin rektoru, professor Hamlet İsaxanlı universitənin professor-müəllim heyəti və tələbələrlə görüşərək, martın 8-19-da Yaponiyaya etdiyi səfərin nəticələri haqqında onlara məlumat verdi. Qeyd etdi ki, Amerika təhsil sisteminin tətbiq edildiyi Yaponiyada həm dövlət, həm də özəl universitetlərdə təhsil qeyri - adi dərəcədə yüksək səviyyədədir. Tokio, Osaka, Kyoto, Beppu-Şi və Naqoya şəhərlərində *Japan İnstitute of İnternational Affairs, GRİPS (National Graduate İnstitute for Policy Studies, Osaka University, Ritsumeikan Asia Pacific University, Doshisha University, Ritsumeikan University, Nagoya University* kimi bir sıra dövlət və özəl universitetlərin rəhbərləri ilə birgə əməkdaşlıq və tələbə mübadiləsi perspektivləri haqqında müzakirələr apardığını söyləyən rektor həmin ali məktəblərdə həm magistratura, həm də doktorantura pillələrinin olduğunu bildirdi və əlavə etdi ki, yapon tərəfi bizim tələbələri qəbul eləmək istəyir, təhsil haqqı da Amerikada və Avropada olduğundan xeyli aşağıdır. Müqavilə şərtlərindən asılı olaraq tələbələrimizin pulsuz təhsil almaq imkanı da istisna olunmur.

Rektor bildirdi ki, Yaponiya universitetlərinin rəhbərləri ilə görüşlər və aparılan müzakirələr tanışlıq və niyyət xarakteri daşısa da, artıq Kyoto şəhərindəki *Doshisha University* ilə müqavilə bağlamaq üçün hazırlıq işləri görülməkdədir və Xəzər Universitəsinin təklif etdiyi müqavilə layihəsi artıq həmin universitetə göndərilmişdir. Sonda rektor müəllim və tələbələrin suallarına cavab verərək, onları maraqlandıran məsələləri ətraflı şərh etdi.

UĞURLU YOLLA – UĞURLU ADDIMLAR

Cari dərs ilində Xəzər Universitəsinə qəbul olunan abituriyentlərdən 7 nəfəri 550-dən artıq bal toplamışdı. "Xəzər Xəbər"in dərs ilindəki ilk nömrəsində (15 sentyabr 2008-ci il) onların haqqında yazı dərc etdik və onlar tələbə olmaq sevincini, universitəmiz barədə fikirlərini oxucularla bölüşdülər. "Yeddilər" adlandırdığımız həmin tələbələri redaksiyanın yaddaşında saxladıq ki, sonradan onların təhsili ilə də maraqlanaq, universitə barədə artıq tələbə kimi düşüncələrini də öyrənək. "Yeddilər"dən üçü ilə qısa müsahibəni təqdim edirik.

SUALLAR

1. Birinci semestr sizin üçün necə keçdi?

2. Universitə həyatı sizin üçün nə deməkdir?

3. Universitəyə gələndən sonra sizdə olan dəyişikliklər?

4. Universitədəki təhsil səviyyəsindən razısınız?

5. Müəllimlərinizdən razısınız?

6. Qrup uşaqları ilə münasibətiniz?

7. Final imtahanları çətin keçdi, yoxsa...

8. Universitədə qrup anlayışı varmı?

CAVABLAR



CABBAROVA MƏRYƏM
(Humanitar və sosial elmlər fakültəsi)

1.Birinci semestr mənim üçün elə də çətin olmadı. Fənlərin çoxundan yüksək bal topladım. Lakin bir fəndən, doğrudan da, çətinlik çəkirdim. Amma ümidimi itirmədim və var gücümlə çalışıb bu fəndən də keçdim.

2.Universitə həyatı mənim üçün qrup yoldaşlarımla yaxşı münasibətdə olmaq, universitədə təşkil olunan tədbirlərdə, konfranslarda iştirak etmək və s. deməkdir. Universitə həyatı nə qədər maraqlı və rəngarəng keçsə, o qədər yaxşı olar.

3.Universitəyə gələndən sonra seçdiyim ixtisasa marağım daha da artdı, oxumaq həvəsim yüksəldi. Burada oxuduğum vaxt ərzində çox maraqlı məlumatlar əldə etdim. Mən əminəm ki, bu hələ başlanğıcdır.

4. Çox razıyam, çünki burada təhsil çox yüksək səviyyədədir. Birincisi, dərslərin ingilis dilində aparılması çox müsbət tərəfdir və ən əsası odur ki, semestr ərzində iki dəfə imtahan veririk. Bu da ki, tələbəni daha da güclü oxumağa məcbur edir. Nə yaxşı ki, Xəzər Universitəsinə daxil oldum. Universitə haqqında ilk dəfə bizim məktəbimizə gələn Əlövsət müəllimdən eşitdim və bu məlumatlar məni çox maraqlandırdı. Sonra isə valideynlərim mənə məhz "Xəzər"ə daxil olmağı məsləhət gördülər. Buranı bitirən tələbələr ən yaxşı şirkətlərdə işləyirlər.

5. Mənə dərs deyən müəllimlərdən çox razıyam. Onların cavan olmalarına baxmayaraq, hamısı çox savadlıdır.

6.Ümumiyyətlə, mən həmişə hamı ilə dil tapmağa çalışıram, qrup yoldaşlarım da çox yaxşı uşaqlardır. Ona görə də bizim bir-birimizlə çox yaxşı münasibətlərimiz var. Kollektiv nə qədər mehriban olsa, uğurları da çox olar.

7. Mənim üçün imtahanların əksəriyyəti asan oldu, amma çətini də var idi. "Xəzər"ə daxil olandan sonra həyatım tam dəyişib. İndi bütün vaxtımı, demək olar ki, oxumağa sərf edirəm və hətta hərdən elə olur ki, vaxtım heç çatmır. Amma bir az boş vaxtım olanda, valideynlərimlə istirahət edirəm və ya kitab oxuyuram.

8. Birinci semestrdə qrup anlayışı var idi. Amma təəssüf ki, artıq ikinci semestrdə belə deyil. Çünki ikinci semestrdə fənləri biz özümüz seçmişik və təbii ki, hamı eyni fənləri götürməyib. Ona görə də, qrup anlayışı, demək olar ki, yoxdur.

***



BAXŞIYEVA NİGAR
(İqtisadiyyat və menecment fakültəsi)

1. 1- ci semestr mənimçün çox yaxşı keçdi. Düzdür, semestrin əvvəli bir az çətin oldu, yeni mühitə öyrəşmək də asan deyildi, ancaq tezliklə hər şey yoluna düşdü; təbii ki, bunun üçün bir az çalışmalı oldum.

2. Universitə həyatı... əslində, gözlədiyimdən daha sadə oldu, bəzi məqamlarda isə daha maraqlı. Nə bilim, hələ ki pis getmir.

3. Hələ ki elə bir dəyişiklik hiss etməmişəm, güman edirəm ki, gələcək illərdə olacaq və inşallah yaxşıya doğru.

4. Məncə, "Xəzər" Azərbaycanda TƏHSİL VERƏN və bunu ən maraqlı şəkildə edən sayca çox az olan universitetlərdən biridir. P.S. Baxmayaraq ki, hələ də WI-FI yoxdu və interneti də heç elə ürək açan vəziyyətdə deyil.

5. Demək olar ki, bəli, razıyam. Əlbəttə ki, istisnalar qaydanı pozmur.

6. Əslində, "Xəzər"də qrup anlayışı yoxdur, ancaq ümumilikdə götürsək, deyə bilərəm ki, kifayət qədər yaxşıdır.

7. İmtahanlar, necə deyərlər, fifty-fifty, (50-50 – yə), ümumilikdə yaxşı keçdi. Ancaq onu da qeyd edim ki, Xəzərdə imtahanların semestr ərzində 2 dəfə keçirilməsi hazırlıq işlərinin və dolayısıyla imtahanların xeyli asan keçməsinə kömək edir.

8. Əslində, bu suala artıq cavab vermişəm, amma bir də qeyd edim. Məncə, "Xəzər"də qrup anlayışı yoxdur, yəni, digər universitetlərdən fərqli olaraq. Ancaq bu suala "Xəzər"in Iqtisadiyyat və menecment fakültəsi çərçivəsində cavab verəsi olsam, məncə, bizim fakültə özü- özlüyündə elə bir qrupdur.

***



ABBASLI MƏLƏK
(İqtisadiyyat və menecment fakültəsi)

1. Yaxşı. Aralıq imtahanlarına qədər çətinliklərim olsa da, tədricən universitənin qaydalarına öyrəşdim və hər şey yaxşı oldu.

2. Universitə həyatı gözlədiklərimin çox az bir hissəsini ifadə edir.

3. Özümdə dəyişiklik hiss etmirəm.

4. Azərbaycanda olan digər universitələrlə müqayisə etdikdə razıyam. Onu da qeyd edim ki, qəbul imtahanlarında 630 bal toplamışdım və bilirdim ki, istədiyim ixtisasa qəbul oluna bilərəm. 8 ixtisas sırasına ilk növbədə Xəzər Universitəsinin adını yazmışdım və TQDK tərəfindən rəsmi olaraq nəticələr elan olunmamışdan əvvəl artıq özümü Xəzər Universitəsinin tələbəsi sayırdım. Universitə haqqında televiziyadan rektor Hamlet İsaxanlıdan eşitmişdim və bilirdim ki, burada tələbələrin xaricdə təhsil alması üçün geniş imkanlar yaradılır.

5. Ümumilikdə razıyam, amma istisnalar da var.

6. Qrup yoldaşlarımla münasibətlərim yaxşıdır.

7. İmtahanlar yaxşı keçdi. Final imtahanlarını yaxşı verib Dekanın fəxri vərəqinə layiq görüldüm. İmtahan suallarının səviyyəsinə gəldikdə isə, oxuyan tələbə üçün çətin deyildi.

8. Bu barədə düşünməmişəm.

Vüsalə MƏMMƏDOVA,
Humanitar və sosial elmlər fakültəsinin 1-ci kurs tələbəsi

QƏBUL İMTAHANLARINDA TOPLADIĞI BAL TƏLƏBƏNİN SƏVİYYƏSİ HAQQINDA İLKİN FİKİR YÜRÜTMƏK ÜÇÜN ƏSAS MƏNBƏDİR

Ali təhsil müəssisəsinin (istər dövlət, istərsə də özəl) əsas məqsədi ölkənin hərtərəfli inkişafını təmin etmək üçün dövrün tələblərinə uyğun kadrların hazırlanmasıdır. Ali təhsilli kadr hazırlığı prosesi abituriyentlərin ali məktəblərə qəbul olunmasından, başqa sözlə, tələbə qəbulundan başlayır. Azərbaycanda dövlət ali məktəblərinə tələbə qəbulu 1992/1993-cü tədris ilindən, özəl ali məktəblərə tələbə qəbulu isə 1995/1996-cı tədris ilindən etibarən mərkəzləşdirilmiş bir dövlət təşkilatı – Tələbə Qəbulu üzrə Dövlət Komissiyası (TQDK) tərəfindən aparılır.



Tələbə qəbulu prosesini mərkəzləşdirilmiş qaydada həyata keçirməyə məsul bir dövlət orqanı olan TQDK öz fəaliyyətini dünyada mövcud təcrübəyə əsaslanaraq elmi əsaslar üzərində qurmağa və ölkənin təhsil siyasətini ardıcıl surətdə həyata keçirməyə çalışır. Fəaliyyətdə olduğu müddətdə TQDK öz işində xeyli irəliləyişlərə nail olmuşdur və öz işini ilbəil daha da yüksək səviyyədə qurmağa səy göstərir. Umumiyyətlə, müstəqillik dövründə təhsil sahəsində qazanılmış nailiyyətlərdən danışanda, TQDK-nın yaranması və fəaliyyəti uğurlu bir addım kimi qiymətləndirilməlidir.

2004-cü ilə qədər tələbə qəbulu əsasən TQDK tərəfindən aparılsa da, qəbul planı dolmadığı halda boş qalan yerlərə universitetlər öz nizamnamələrinə uyğun olaraq, TQDK-nın keçirdiyi test imtahanlarında iştirak etmiş abituriyentlər arasında əlavə müsabiqə aparmaq hüququna malik idilər.

2004-cü ildən etibarən Azərbaycan Respublikası Prezidentinin 17 iyun 2004-cü il tarixli 78 saylı fərmanına əsasən həm dövlət, həm də özəl ali məktəblərə tələbə qəbulu yalnız TQDK vasitəsi ilə aparılır.

Təhsil Nazirliyinin 4 may 2006-cı il tarixli kollegiya iclasında özəl ali məktəblərdə kadr hazırlığı aparılan bir sıra ixtisaslar – hüquqşünaslıq, beynəlxalq hüquq və tibb ixtisasları üzrə 2006/2007-ci tədris ilindən başlayaraq tələbə qəbulu aparılmaması haqqında qərar verildi. (Sonradan beynəlxalq münasibətlər ixtisası da bu ixtisasalara əlavə olundu).

Dalbadal verilmiş bu iki qərar özəl ali məktəblərə tələbə qəbulunun sayına ciddi təsir etdi. (Təhsil nazirliyi kollegiyasında qəbul edilən qərarın özəl ali məktəblərin nüfuzuna ciddi xələl gətirdiyi də qeyd edilməlidir).

Məlumdur ki, tələbə qəbulu həm dövlət, həm də özəl ali məktəblərə TQDK tərəfindən aparılır. Tələbə qəbulunun TQDK tərəfindən aparılması ali məktəblərin, o cümlədən özəl ali məktəblərin qarşısında konkret məsələ qoyur; ali məktəblər məhz TQDK tərəfindən göndərilmiş abituriyentləri yüksək səviyyəli kadr kimi yetişdirmək proqramını həyata keçirməli olurlar. Əlbəttə, abituriyentin TQDK tərəfindən göndərilməsi, yoxsa ali məktəbin özü tərəfindən götürülməsi formaca əhəmiyyət kəsb etmir. Əsas məsələ onların seçilmə prinsipindədir. Indiki halda bütün bu prinsiplər TQDK tərəfindən müəyyənləşdirilir. Ali məktəblər abituriyentlərin seçilməsi prosesindən kənarda qaldığından yeni qəbul olunan tələbələrin TQDK-nın keçirdiyi imtahanlarda topladığı ballar onların ilkin səviyyəsi haqqında fikir yürütmək üçün yeganə mənbədir.

Xəzər Universitəsində yeni qəbul olunan tələbələrin yerləşdirilməsi mexanizmi elə qurulmuşdur ki, onların qəbul imtahanlarında yığdığı ballar yerləşdirmə prosesində önəm daşımır. Yeni qəbul olunanlar İngilis dili departamenti tərəfindən hazırlanmış yerləşdirmə testi (placement test) üzrə imtahan verir və hərə öz nəticəsinə görə qruplara yerləşdirilir. Bununla belə, tələbələrin qəbul imtahanlarında yığdığı ballar statistika baxımından xeyli maraq kəsb edir.

Təcrübə göstərir ki, qəbul olunan tələbələrin əksəriyyətinin təhsilin ilk dövründə göstərdiyi nəticələr qəbul imtahanları zamanı yığdıqları ballara təxminən uyğun olur.

İndi tələbə qəbulunun TQDK tərəfindən aparıldığı 14 il ərzində Xəzər Universitəsinə ayrılan qəbul planı, qəbul olunanların sayı, qəbul olunan oğlan və qızların sayı, keçid balından 300-ə qədər, 300-400, 400-500, 500-600, 600-700 aralığında bal toplayanların sayını əks etdirən rəqəmlər cədvəlinə nəzər salaq:

BAKALAVR PİLLƏSİNƏ QƏBUL OLUNAN TƏLƏBƏLƏRİN BALLAR ÜZRƏ STATİSTİK HESABAT CƏDVƏLİ

Tədris ili	Qəbul planı	Qəbul olanların sayı	Oğlanların sayı	Qızların sayı	300-ə qədər bal toplayanlar	300-400 aralığında bal toplayanlar	400-500 aralığında bal toplayanlar	500-600 aralığında bal toplayanlar	600-700 aralığında bal toplayanlar
2008-2009	295	281	157	124	61	171	37	9	3
2007-2008	295	277	153	124	79	145	44	7	2
2006-2007	305	258	142	116	87	124	35	10	2
2005-2006	445	427	225	202	167	214	33	7	6
2004-2005	395	184	114	70	118	51	9	4	2
2003-2004	265	79	54	25	70	8	1	-	-
2002-2003	300	9	4	5	6	1	-	-	2
2001-2002	245	60	27	33	29	25	5	1	-
2000-2001	375	96	61	35	71	25	-	-	-
1999-2000	360	168	86	82	144	20	1	3	-
1998-1999	495	197	109	88	186	9	-	2	-
1997-1998	340	48	19	29	44	4	-	-	-
1996-1997	340	15	5	10	14	1	-	-	-
1995-1996	340	54	32	22	41	12	1	-	-
Cəmi	**4795**	**2153**	**1188**	**965**	**1117**	**810**	**166**	**43**	**17**

Cədvəldən göründüyü kimi, ali məktəblərə qəbulun TQDK tərəfindən aparıldığı ilk 10 il müddətində (2005/2006-cı tədris ilinə qədər) Xəzər Universitəsinə qəbul olunan tələbələrdən keçid balı ilə 300 bal arasında nəticə göstərənlərin sayı 300-400 aralığında bal toplayanların sayından ciddi dərəcədə çox olurdu. 2005/2006-cı tədris ilindən başlayaraq son 4 ildə bu münasibət əks istiqamətə dəyişmişdir. Bu illərdə 300-400 aralığında bal toplayanların sayı 300-ə qədər bal toplayanların sayından təxminən 2 dəfə çox olmaqla yanaşı, ümumi qəbul olunanların da 50%-dən çoxunu təşkil edir. Bunun səbəblərindən biri son illərdə ali məktəblərə qəbul üçün qoyulan keçid balının yuxarı qaldırılmasıdırsa, digər səbəb kimi keyfiyyətli təhsil verən ali məktəblərdə təhsil almaq istəyənlərin ildən-ilə çoxalmasını göstərmək olar ki, bu da sevindirici haldır.

400-700 aralığında bal toplayaraq qəbul olunanlar da əsasən son 5 tədris ilinə aiddir. 400-500 aralığında bal toplayan 166 nəfərin 158-i, 500-600 aralığında bal toplayan 43 nəfərin 37-si, 600-700 aralığında bal toplayan 17 nəfərin 15-i son 5 tədris ilində qəbul edilmişdir.

600-700 aralığında bal toplayan 17 nəfərdən 3-nün balı 650-dən çoxdur. (Səmədov Hidayət Rasim oğlu – 686 bal, 2005-2006-cı il qəbulu; Xanlarov Şaiq Eynulla oğlu – 675 bal, 2005-2006-cı il qəbulu; Kazımova Aysel Aslan qızı – 661 bal, 2007-2008-ci il qəbulu). Bu tələbələr memarlıq, mühəndislik və tətbiqi elmlər fakültəsinin tələbələridir və hər üçü Prezident təqaüdçüləridir.

Qarşıdan yeni 2009/2010-cu tədris ili üçün qəbul imtahanları gəlir. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 12 yanvar 2009-cu il tarixli, 8 sayli qərarı ilə ali təhsilin bakalavr pilləsi ixtisaslarının (proqramlarının) siyahısında dəyişiklik edilmiş, ölkəmizdə bakalavr pilləsində kadr hazırlığı aparılan ixtisasların sayı standartlara uyğunlaşdırılaraq 513-dən 149-a endirilmişdir. Bununla əlaqədar hər bir ali məktəbdə, o cümlədən Xəzər Universitəsində də mövcud siyahıda təbii dəyişikliklər edilmişdir. Əgər 2008/2009-cu tədris ilində 14 ixtisas üzrə qəbul aparılmışdısa (qəbul planı 295 nəfər), 2009/2010-cu tədris ili üçün 23 ixtisas üzrə qəbul aparılması (qəbul planı 455 nəfər) planlaşdırılmışdır.

Tələbə olmaq istəyən bütün abituriyentlərə uğurlar arzulayırıq və inanırıq ki, universitəmizə bu il nəzərdə tutulan qəbul planı tam dolacaq və yüksək ballarla qəbul olunanların sayı ildən-ilə artacaqdır.

İsaxan İSAXANLI,
Qəbul və tələbə şöbəsinin müdiri
Lamiyə NAMAZOVA,
Qəbul və tələbə şöbəsinin assistenti

MƏDƏNİYYƏT

"NƏ GÜMAN EYLƏMİSƏN ONDAKI TİLSİMLƏRİ SƏN..."

"SEGAH" BİZİM MİLLİ RUHUMUZA DAHA YAXINDIR

"Muğam Azərbaycanın milli sərvətidir". Prezident İlham Əliyev bu sözləri "Muğam dünyası" Beynəlxalq festivalının açılış mərasimində demişdir. Doğrudan da, ölkəmizi muğamsız, muğamı isə Azərbaycansız təsəvvür etmək çətindir. Azərbaycan xalq musiqisinin qüdrətli bir şaxəsi olan muğamın bütün formaları – "Rast", "Şur" və "Segah", "Qatar" və "Bayatı Kür", "Heyratı", "Qarabağ şikəstəsi", "Kəsmə şikəstə" və s. xalq arasında eyni dərəcədə populyardır və eyni dərəcədə sevilir. Lakin sənətşünaslar, muğam biliciləri hesab edirlər ki, "Segah", onun müxtəlif variantları bizim milli ruhumuza daha yaxındır. Yəqin ki, bunu deyənlər haqlıdırlar.



Dərin fəlsəfi məna daşıyan poeziyaya əsaslanan hər hansı muğamı diqqətlə dinləyin, Füzuli, Nəsimi, Seyid Əzim Şirvani, Vahid və başqa şairlərin qəzəllərinin mənası üzərində düşünün... Sizə elə gəlmirmi ki, bu musiqini dinlədikcə sehrli bir aləmə dalırsınız, keçirdiyiniz hisslər həmin muğamın musiqi obrazlarına uyğun gəlir? Əgər belə deyilsə, deməli, bu, sizin muğamınız deyil. Siz öz muğamınızı axtarın və hökmən onu tapacaqsınız.

Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri, milli mədəniyyətimizin və xalq sənətinin, o cümlədən Şərqin ən qiymətli incisi sayılan muğamın qorunub saxlanmasında və inkişaf etdirilməsində çox böyük xidmətləri olan Mehriban xanım Əliyeva muğam barədə fikirlərini təxminən bu şəkildə ifadə etmişdir.

YARALI ÜRƏKLƏRİN MƏLHƏMİ

Muğam hər bir azərbaycanlının həyatına az qala doğulduğu andan daxil olur. Bu heyrətamiz musiqi bütün hallarda bizim daxili ovqatımıza uyğun gəlir. O, həmişə yerinə düşür – kədərli və qüssəli anlarımızda da, sevinc və sevgi duyğuları aşıb-daşanda da. Bəli, muğam bizi həyatımızın əvvəlindən sonuna

qədər daim müşayiət edir. Muğam fenomeni də məhz ondan ibarətdir ki, o, əsrlər boyu insanı müşayiət etmiş, ona ruhi saflıq və ucalıq bəxş edərək, ən qədim dövrlərdən bu günə və gələcəyə körpü olmuşdur. Muğamın ən yaxşı ifaçılarının və bilicilərinin fikirlərini xatırlayaq.

Vaxtilə Azərbaycanda ən tanınmış muğam ifaçılarından olan Seyid Şuşinski muğamı bütöv bir ümmana bənzədirdi. Xan Şuşinskinin fikrincə, muğam yaralı ürəklərin məlhəmi,



insanlara təsəlli verən, onları ruhən yüngülləşdirən bir sənətdir.

Həqiqətən, bu böyük sənətkarların ifasında səslənən muğam məhz belə təsirə malik idi. Xalqımızın əhval-ruhiyyəsini, onun xarakterini ifadə edən ecazkar muğam melodiyalarını dinlədikcə insan sanki saflaşır, qürur hissi keçirir. Muğam Avropa və Amerikada özünə yüzlərlə, minlərlə pərəstişkar tapmışdır. Azərbaycan muğamlarının bənzərsiz ifaçısı Alim Qasımovun xarici ölkələrdəki çıxışlarının necə qəbul edilməsi buna əyani sübutdur.

AZƏRBAYCANIN GENETİK KODU

Vaxtilə bəstəkar Əfrasiyab Bədəlbəyli tamamilə haqlı olaraq muğamatı Azərbaycan musiqi dilinin lüğət fondu, musiqimizin təməli kimi səciyyələndirmişdir. Dahi Üzeyir Hacıbəyli Şərqdə ilk opera olan "Leyli və Məcnun"u məhz muğam əsasında yazmışdır. Sonrakı dövrdə Azərbaycan bəstəkarları xalqımızın milli musiqi



xəzinəsini dərin məzmunlu, bənzərsiz melodiyaları ilə seçilən əsərlərlə zənginləşdirmişlər. Niyazinin "Rast", Fikrət Əmirovun sözün həqiqi mənasında sensasiyaya çevrilmiş "Şur", "Kürd ovşarı", "Gülüstan-Bayatı Şiraz" əsərləri o vaxta qədər mövcud olmayan simfonik muğam janrının ilk nümunələri kimi bütün musiqi dünyasını heyran etmişdi.

Sonralar Süleyman Ələsgərovun "Bayatı Şiraz", Vasif Adıgözəlovun "Segah", Tofiq Bakıxanovun "Nəva", "Humayun" və başqa əsərləri yaranmışdır. Xalq çalğı alətləri orkestri və simfonik orkestr, arfa, orqan və fortepiano üçün yazılmış əsərlər arasında Asəf Zeynallının "Çahargah" simfoniyası, Aqşin Əlizadənin "Muğam melodiyaları", Fərəc Qarayevin "Xütbə, muğam və surə" kimi orijinal bəstələri xüsusi yer tutur. Firəngiz Əlizadənin vətən və xalq məhəbbəti duyğuları ilə dolu "Habilsayağı", "Muğamsayağı", "Azərbaycan pastoralı" və başqa əsərləri xüsusi qeyd edilmə-



lidir. Bəstəkar bu əsərlərdə xalqımızın milli cizgilərini təcəssüm etdirməyə, muğamı müasir bəstəkarlıq texnikası ilə əlaqələndirməyə nail olmuşdur. Yəqin elə buna görədir ki, dünyanın ən yaxşı musiqiçiləri Firəngiz Əlizadənin əsərlərini dinləyicilərə şövqlə təqdim edir, məhz bu səbəbdən onun musiqisi bütün ölkələrdə böyük maraqla qarşılanır. Firəngiz xanım özü muğamı Azərbaycanın genetik kodu, ümumbəşəri irs adlandırmışdır.

Elə buna görə də, muğam ilə cazın sintezi ilk dəfə ölkəmizdə



həyata keçirilmişdir. Bu işin təməlini Azərbaycanın istedadlı cazmeni Vaqif Mustafazadə qoymuş, sonra isə Rafiq Babayev, Əzizə Mustafazadə, Şahin Növrəsli bu ənənələri çox uğurla davam etdirərək, özlərinin muğam-caz improvizələri ilə məşhurlaşmışlar.

MUĞAM DAİM DİALEKTİK İNKİŞAFDADIR

Son illərdə İngiltərə, Fransa, Almaniya, Yaponiya və ABŞ-da muğama maraq xeyli artmışdır, bu ölkələrdə muğamı çox yüksək səviyyədə qəbul edirlər. Görünür, bu fakt onunla izah edilməlidir ki, qədim Azərbaycan muğamı bu əsrin əvvəlinə qədər milli ənənələri xalis şəkildə qoruyub saxlamış və mütəxəssislərin fikrincə, kifayət qədər inkişaf etmiş, mədəni dəyərlərin yüksək bədii ifadə formasına çevrilmişdir. Elə buna görə də, 2003-cü ildə muğam YUNESKO-nun bəşəriyyətin şifahi və qeyri-maddi irsi inciləri siyahısına daxil edilmişdir. Bu hadisə, ilk növbədə, bizim özümüzün muğam sənətinə münasibətimizi dəyişməyə əsas vermiş, başa düşmüşük ki, muğam sənətinin əhatə dairəsi yerli mədəniyyət hüdudlarından çox-çox genişdir. Lakin onu da deməliyik ki, dövlətimizin, şəxsən Prezidentin, eləcə də ölkəmizin birinci xanımının rəhbərlik etdiyi Heydər Əliyev Fondu və Azərbaycan Mədəniyyətinin Dostları Fondu kimi nüfuzlu ictimai təşkilatların dəstəyi olmasaydı, muğam irsinin qorunub saxlanmasına və inkişaf etdirilməsinə yönəlmiş ciddi, geniş əhatəli tədbirlər görülməsəydi, bunlar bəlkə də baş tutmazdı.

Heç də təsadüfi deyil ki, birinci Beynəlxalq "Muğam dünyası" festivalı məhz Azərbaycan paytaxtında, haqlı olaraq, İslam mədəniyyəti paytaxtı seçilmiş Bakıda keçirildi. Muğam bilicilərı bu festivala toplaşaraq incəsənətin çox özünəməxsus bir növü barədə fikir mübadiləsi etmiş, muğamın qorunub saxlanması və inkişaf etdirilməsi yollarını nəzərdən keçirmişlər. Azərbaycanda bu sahədə görülmüş işlər muğama marağı xeyli artırmış, muğamın sirlərinə yiyələnmək istəyənlərin sayı qat-qat çoxalmışdır. Bu, zəruridir, çünki, muğamı Azərbaycan xalqının fəlsəfi yaddaşında donub qalmış səslər kimi təsəvvür etmək olmaz, muğam daim dialektik inkişafdadır.



RUHU OXŞAYAN İFA

Məlumdur ki, muğamı necə qavramağımız xeyli dərəcədə onun necə ifa edilməsindən asılıdır. Lakin muğam repertuarında elə melodiyalar var ki, onlar özünəməxsus musiqi formasına malikdirlər. Təsniflər, rənglər buna misal ola bilər. Üzeyir Hacıbəyli bu formaları ifaçıların bəstəkarlıq yaradıcılığı sahəsini təşkil edən melodiyalar kateqoriyasına aid edirdi. Bu gün də ifa edilən təsniflərin çoxu XX əsrin Cabbar Qaryağdıoğlu, Seyid Şuşinski, Xan Şuşinski, Hacıbaba Hüseynov, İslam Rzayev, Arif Babayev, Əlibaba Məmmədov kimi görkəmli xanəndələrinin yaradıcılığının bəhrəsidir. Ötən əsrin görkəmli tarzənləri Əhməd Bakıxanov, Mənsur Mənsurov, Bəhram Mənsurov, Əhsən Dadaşov, Hacı Məmmədov, Kamil Əhmədov və başqalarının repertuarı klassik muğam nümunələrindən ibarət idi.

Əlbəttə, muğam ifaçılığının əsas keyfiyyət meyarı xanəndənin peşəkarlığıdır. Lakin mütə-

xəssislər haqlı olaraq hesab edirlər ki, xanəndənin ustalığı, onun muğam ifa edərkən dinləyicini başqa bir aləmə aparmaq bacarığı da az rol oynamır. Muğam sənətinin ecazkarlığı, sehri məhz bundadır. Burada səsin gözəlliyi çox vacib amildir. Yaxşı deyiblər ki, muğamda dinləyicini ovsunlayan birinci amil ifaçının gözəl səsidir. Ruhu oxşayan ifa dinləyicinin qəlbində ülvi duyğular oyadır, onu xəyallar aləminə aparır, ruhlandırır...

MUĞAMIN MALİK OLDUĞU MƏNƏVİ KAMİLLİK

Beynəlxalq "Muğam dünyası" festivalı çərçivəsində muğama həsr edilmiş elmi simpoziumda xor sənəti məsələsinə də toxunulmuşdur. Xanəndələr çox güclü səsə, virtuoz ifa texnikasına, bəstəkar təfəkküründə malik olan peşəkar muğam ifaçılarıdır, lakin kollektiv ifa onları da özünə cəlb edir. Dünya musiqi mədəniyyətində yeni janr olan xor muğamlarının yaranmasının şahidi olmuşuq. Xorun ifasında muğam ilk dəfə dahi Üzeyir Hacıbəylinin davamçısı bəstəkar Cahangir Cahangirovun "Azad" operasında səslənmişdir. Bu operada xor "Çahargah" ifa edir.

Sonra Nazim Əliverdibəyovun xor üçün "Bayatı Şiraz" əsəri, daha sonra Vasif Adıgözəlovun "Qarabağ şikəstəsi" oratoriyası yaranmışdır. Bu oratoriyanın nadirliyi bundadır ki, onun əsasını təşkil edən ritmik muğam əvvəllər heç vaxt vokal-simfonik, xor ifasında istifadə edilməmişdir.



Bizim bəstəkarlar və şairlər üçün tükənməz ilham mənbəyi olan muğam təsviri sənət ustalarına da ruh verir. Ən yaxşı rəssamlarımız muğam mövzusuna müraciət etmişdir. Məsələn, Toğrul Nərimanbəyovun "Muğam" tablosu bu rəssama dünya şöhrəti qazandırmışdır.

Təbii ki, muğamın əhəmiyyəti bizim burada söylədiklərimizdən qat-qat artıqdır. Axı, muğam bizim həyatımızın, varlığımızın bir hissəsidir. Mehriban xanım Əliyeva muğamı obrazlı şəkildə çox dəqiq səciyyələndirmişdir: "Biz muğamı gələcək nəsillərə qəlbimizin və ruhumuzun bir hissəsi kimi miras qoyuruq. Məhz muğam bizim varislərimizdə köklərə bağlılıq, milli ləyaqət, qürur, emosional zənginlik, iztirab çəkməyi və başqalarının iztirabına şərik olmağı bacarmaq, muğamın özünün malik olduğu mənəvi kamillik, tamlıq kimi keyfiyyətlər aşılamağa qadirdir".



Elmira ƏLİYEVA,
AzərTAc-ın müxbiri

"PARİSLİ AZƏRBAYCANLI" SƏNƏDLİ FİLMİNİN İSTEHSALI BAŞA ÇATMIŞDIR



Azərbaycanın tanınmış diplomatı Ramiz Abutalıbovun həyat yoluna həsr olunmuş 23 dəqiqəlik "Parisli azərbaycanlı" sənədli filminin istehsalı başa çatmışdır. "Salnamə" sənədli filmlər studiyasında çəkilişlərinə 2008-ci ilin noyabrından başlanan filmin rejissorları Tahir Əliyev və İqbal Məmmədəliyevdir.

T.Əliyev bildirmişdir ki, filmin çəkilişləri Bakı, Naxçıvan və Moskvada aparılmışdır. "Parisli azərbaycanlı" filmində Ramiz Abutalıbov öz həyat yolundan danışmışdır.

Filmin ssenari müəllifi İlham Tumas, operatoru Elşən Həsənoğlu, prodüseri Tofiq Məmmədovdur. Yeni ekran əsərinin premyerasının yay aylarında keçirilməsi nəzərdə tutulmuşdur.

Film Bakıda, həm də Moskvada təqdim olunacaqdır.

Ramiz Abutalıbov Fransa arxivlərində Azərbaycan mədəniyyətinə aid çoxlu sayda sənədlər aşkara çıxararaq, onların Azərbaycana verilməsinə nail olmuşdur.

AZƏRBAYCAN DİRİJORU URALI FƏTH EDİR



Azərbaycanın əməkdar incəsənət xadimi, Bakı Musiqi Akademiyasının professoru dirijor Yalçın Adıgözəlov bu yaxınlarda Yekaterinburqdakı Sverdlovsk Dövlət Filarmoniyasında baş tutmuş konsertini "Müəllim və şagird" adlandırmışdır. Ural Akademik Filarmoniyası orkestrinin dirijor pultu arxasına ilk dəfə keçən həmvətənimiz böyük bəstəkar Dmitri Şostakoviçin və onun dünya şöhrətli şagirdi, haqlı olaraq, Azərbaycan milli musiqi mədəniyyətinin rəmzi sayılan Qara Qarayevin möhtəşəm simfonik əsərlərini Rusiya dinləyicisinə təqdim etmişdir. Qara Qarayevin anadan olmasının 90 illiyinə həsr edilmiş konsert YUNESKO-nun himayəsi ilə bütün dünyada təşkil edilən yubiley təntənələrinin bir hissəsi olmuşdur.

Bir sıra aparıcı orkestrlərlə, o cümlədən Rusiya Milli Orkestri, P.İ.Çaykovski adına Böyük Simfonik Orkestr, Sankt-Peterburq Filarmoniyasının orkestri və s. ilə əməkdaşlıq edən, M.Rostropoviç, N.Petrov, S.Stadler, İ.Monigetti və digər tanınmış musiqiçilərlə çıxış etmiş Yalçın Adıgözəlov Yekaterinburq səhnəsində ilk dəfə çıxış edirdi. Konsertdə D.Şostakoviçin "Bayram uvertürası" və 6 nömrəli simfoniyası, beynəlxalq müsabiqələr laureatı Natalya Mokeyevanın ifasında Qara Qarayevin A.S.Puşkinin şeirlərinə bəstələdiyi "Gürcüstan təpələrində...", "Mən sizi sevirdim..." romansları, "İldırımlı yollarla" baletindən ikinci süita səslənmişdir.

Y.Adıgözəlovun mahir dirijorluğu ilə Yekaterinburq orkestrinin ifasında Şostakoviçin qeyri-adi, musiqidə yeni və orijinal cığır açmış musiqisi və Azərbaycan bəstəkarlıq məktəbinin ən görkəmli nümayəndələrindən biri olan Qara Qarayevin romantik-emosional, dinləyicini xəyallar və fantastika dünyasına aparan əsərləri böyük şövqlə qəbul edilmişdir.

Böyük uğurla keçən konsert rusiyalı həmvətənimiz, Sverdlovsk vilayəti Qanunvericilik Məclisinin nümayəndələr palatasının deputatı Nazim Əfəndiyevin dəstəyi ilə təşkil edilmişdi.

ИСКУССТВО НА СТРАЖЕ ПРАВ ЧЕЛОВЕКА

Художники, музыканты и другие деятели рассказывают о несправедливости

Великий испанский художник Франсиско Хосе де Гойя (1746-1828) засвидетельствовал смуту начала 19-го века в своей стране, создав цикл картин и гравюр, отражающих ужасы войны. С тех пор многие художники следуют его примеру, используя искусство в качестве средства выражения социального протеста в произведениях, отстаивающих права человека, мир и справедливость.



В качестве примеров можно привести таких гигантов искусства 20-го века, как художник Диего Ривера (1886-1957). Ривера и другие художники-монументалисты 1930-х годов украсили стены мексиканских школ, министерств, церквей и музеев образами, посвященными истории страны и вкладу обездоленного индейского населения Мексики. Эти художники считали, что создание произведений в общественных местах ведет к демократизации, поскольку делает искусство доступным всем людям, независимо от расы или классовой принадлежности.



Еще одним художником, чьи взгляды отчасти сформировал Гойя, был живописец и скульптор Пабло Пикассо (1881-1973). Монументальная картина Пикассо "Герника" изображала нацистскую бомбардировку испанского города Герники в 1937 году, во время Гражданской войны в Испании. Эта картина помогла осветить - и осудить - злодеяния, свидетелем которых был Пикассо.



ИСКУССТВО ОБНОВЛЯЕТ ОБЩЕСТВО

Многие художники 21-го века берутся за ту же задачу, пусть даже их цели скромнее. Моника Надор из Бразилии, чьи работы выставлялись во Франции, Австралии и других странах, получила образование в Академии изящных искусств. Ее все сильнее тревожила мысль о том, что создание произведений искусства является роскошью, неуместной в условиях крайней бедности, которую она видела в некоторых странах Латинской Америки.

Пересмотрев свое отношение к живописи, Надор использовала свой талант для того, чтобы помочь малоимущим районам сохранить свои исторические традиции. Несколько лет Надор ездила в городские и сельские районы Бразилии, Кубы и Мексики по приглашению местных жителей, расписывая стены домов и других зданий.

Местные жители помогают Надор подбирать цвета и декоративные мотивы, так что готовые фрески часто отличаются ярко выраженным региональным колоритом. Каждый одновременно является учителем и учеником, участвующим в процессе обновления общества, считает Надор. Эта работа, по ее словам, "полезна для умственного и духовного здоровья народа".

Надар также учредила клуб "Жардим Мириам Арте" - некоммерческое объединение, назван-

ное в честь одного из самых неблагополучных районов Сан-Паулу в Бразилии. Работая на базе домашней студии Надор, клуб привлекает молодежь из групп риска к участию в художественных программах, приносящих доход, позволяющих осваивать новые навыки и отвлекающих подростков от пагубного влияния улицы. Через эту организацию Надор борется с насилием, преступностью, дискриминацией, несправедливостью и голодом, а творчество ее юных учеников отражает мощное влияние искусства.

Участники программы обнаруживают, "что искусство обладает целебной силой, - рассказала Надор *America.gov*. - Оно может порождать связи, дружбу, ощущение гражданства и общности". Пожалуй, важнее всего то, что "оно несет радость" людям, которые знали мало счастья.

ДРУГИЕ ГОЛОСА СОВЕСТИ

Музыканты тоже, как известно, давно отличаются политической активностью. В 1960-е годы многие американские рок-группы, певцы и композиторы (в том числе Боб Дилан и Джоан Баэз) выступали против участия США во Вьетнамской войне, и в Соединенных Штатах сохраняется традиция музыки как формы протеста.



Музыка с идейной основой также укоренилась в других странах мира. Боб Марли (1945-1981) с Ямайки писал и исполнял песни в стиле рэгги, направленные против социальной несправедливости в его стране и за рубежом. Поп-певец Хуан Луис Герра из Доминиканской Республики часто затрагивает в своей музыке социальные проблемы, как и родившийся на Кубе певец в музыкальном стиле сальса Уилли Чирино - исполнитель, которого считают одним из отцов так называемого "звучания Майами" (сплава кубинских, бразильских и карибских ритмов).



С убедительными обращениями выступают и артисты, работающие на стыке разных форм и жанров. Певец и композитор Нимал Мендис со Шри-Ланки снял документальный фильм под названием "Разбитая жемчужина", посвященный тяготам женщин, которые страдают от непрекращающейся гражданской войны на острове.

Канадская художница Ребекка Белмор исследует историю, перемещение, культурные потери и самобытность, сочетая скульптуру, инсталляции, видеосъемки и живое исполнение. Принадлежа к племени анишинаабе североамериканских индейцев, Белмор разрабатывает проекты, показывающие, как коренное население Канады в свое время было вынуждено отказаться от своего наследия, поскольку правительство навязывало ассимиляцию в западную культуру.



По всему миру можно найти другие убедительные примеры социальной миссии художника. В Бирме комедиант У Маунг Тхура (более известный под сценическим псевдонимом Зарганар - "Пинцет") с тонким юмором высмеивает правящую в его стране военную хунту - и терпит суровую месть. После того, как в мае прошлого года Бирму поразил циклон, Зарганар организовал кампанию по раздаче продуктов и других предметов первой необходимости пострадавшим сельским жителям, но поскольку его гуманитарные усилия привлекли внимание к некомпетентности хунты, его кампания была прекращена.

Где бы они ни находились, художники, восстающие против несправедливости, играют важную роль, будоража совесть своей аудитории картинами, музыкой, фотографиями, фильмами или живыми произведениями. Почти наверняка эту миссию одобрил бы Гойя - художник, которого одновременно признают последним из Старых мастеров и первым современным живописцем.

ЦЕНТРАЛЬНАЯ АЗИЯ ОТКРОЕТ НОВЫЕ ВОЗМОЖНОСТИ В СФЕРЕ ЭНЕРГЕТИКИ

Carlos Aranaga

Вашингтон. В период глобальной энергетической нестабильности ресурсы Центральной Азии могут сыграть важную роль в новом энергетическом уравнении.

Страны этого региона располагают обширными запасами нефти и природного газа, а также залежами урана и гидроэнергетическими ресурсами. Однако добыча этих запасов сопряжена с наиболее экстремальными и технически сложными условиями в мире и требует применения современных технологий, которыми обладают лишь несколько международных нефтяных компаний, утверждают аналитики.

Разработка этих ресурсов и их экспорт на мировые рынки будет способствовать укреплению независимости, суверенитета и экономического развития стран Центральной Азии, заявляют представители правительства США.

Однако некоторые аналитики, признавая вклад, который этот регион может внести в диверсификацию европейских источников энергии, предостерегают от нереалистичных ожиданий.

Казахстан полностью обеспечивает себя природным газом, на эту страну приходится половина всей нефтедобычи в регионе Каспийского моря, говорится в докладе Министерства энергетики США, подготовленном в феврале 2008 года.

С образованием в 1993 году компании "Тенгизшевройл" корпорация Chevron стала первой ведущей западной нефтяной фирмой, утвердившейся в Казахстане. Сегодня Chevron является крупным участником двух важнейших проектов страны по разработке нефтяных и газовых месторождений – Карачаганак и Тенгиз.

Министерство энергетики США сообщает, что в следующем десятилетии в Казахстане ожидается резкое увеличение добычи нефти, и новая инфраструктура для экспорта нефти имеет решающее значение для устойчивого роста страны.

Туркменистан является вторым по объему после России производителем природного газа среди бывших советских республик и располагает одним из крупнейших в мире газовых месторождений. Согласно результатам исследования, проведенного в октябре 2008 года нефтяной консультативной фирмой Gaffney Cline and Associates, запасы газа Южного Иолотань-Османского месторождения на юго-востоке Туркменистана составляют, по оценкам, 6 трлн. кубометров, а возможно, даже 14 трлн. кубометров.

Если Туркменистан сумеет осуществить разработку своих обширных газовых ресурсов, он станет одним из основных участников "Южного коридора", газовой инфраструктуры, призванной обеспечить независимый экспортный маршрут для каспийской нефти и газа, в то же время, ослабляя зависимость Европы от российских поставок газа. Выступая в марте в Брюсселе, государственный секретарь США Хиллари Клинтон сказала: "Необходимы совместные усилия как для создания новых форм производства энергии, так и для одновременного обеспечения безопасности имеющихся энергоресурсов. Я думаю, это очень важный вопрос для Евросоюза – новая энергосеть, новые трубопроводы и все, что с этим связано".

Однако Туркменистан, согласно анализу, проведенному в феврале 2008 года Администрацией по энергетической информации США, продолжает страдать от "отсутствия достаточного объема иностранных инвестиций, трудностей географического характера, недостаточно развитой инфраструктуры экспортных трубопроводов и политической нестабильности", что по-прежнему мешает стране стать крупным экспортером энергии.

Узбекистан испытывает аналогичные проблемы с инфраструктурой, а большая часть энергетической продукции страны, как сообщает Администрация по энергетической информации США, идет на удовлетворение внутреннего спроса. По оценкам, доказанные запасы страны составляют около 594 млн. баррелей нефти и более 66 млрд. кубических футов газа. Большинство известных нефтяных месторождений Узбекистана находятся в регионе Бухара-Хива, в их числе – месторождение Кокдумалак, на долю которого приходится около 70 процентов запасов узбекской нефти. Узбекские нефтяные месторождения находятся в северо-восточной части Ферганской долины, на плато Устюрт, а также вдоль побережья Аральского моря.

Продвигаясь дальше на восток, **Таджикистан и Кыргызстан** имеют не столь крупные, но потенциально значительные энергетические активы. Хотя Кыргызстан импортирует нефть и газ, он богат источниками гидроэлектроэнергии, в стране есть урановые месторождения. Таджикистан является нетто-импортером энергии и сталкивается с сокращением поставок из Узбекистана, его основного поставщика, в связи с невыплаченными долгами по предыдущим поставкам газа. В стране есть ограниченные запасы нефти и урана, но существуют огромные возможности в области гидроэлектроэнергетики.

В нефтяном и газовом секторах, отмечают эксперты, в настоящее время инвестирование со стороны западных компаний осуществляется в Казахстане и расположенном неподалеку Азербайджане, а малазийская корпорация Petronas изучает проекты в Узбекистане.

Линн сообщил, что на стадии рассмотрения находятся проекты по разработке гидроэлектростанций в Таджикистане и Кыргызстане при содействии Азиатского банка развития и Всемирного банка.

(Распространено Бюро международных информационных программ Государственного департамента США. Веб-сайт: http://www.america.gov/ru

"BP" 100 İLLİYİNİ QEYD EDİR

1909-cu il aprelin 14-də İranda Məscidi-Süleyman yatağının işlənməsi üçün Anqlo-Fars Neft Şirkəti (Anglo-Persian Oil Company) kimi yaranan bu şirkət sonralar "BP" adlandırılıb.

Lent.az-ın məlumatına görə, hazırda şirkətin çox böyük aparıcı gücü var və ötən 100 il ərzində BP dünyanın 100-dən artıq ölkəsində fəaliyyət göstərən çoxmillətli bir şirkətə çevrilib. Bu müddətdə BP-nin neft sənayesində 160 illik tarixə malik Azərbaycanla əməkdaşlığı xüsusi bir yer tutur. Belə ki, 15 il əvvəl - 1994-cü ildə BP Azərbaycan Dövlət Neft Şirkəti (ARDNŞ) və tərəfdaşlarla birgə işləməklə Azərbaycanın neft sənayesi tarixində ən iri müqaviləni bağlayıb.

"BP Azərbaycan" şirkətindən bildiriblər ki, hazırda dünyanın ən böyük terminalı - Səngəçal terminalı



və ixrac boru kəməri sistemlərinizin hamısı səmərəli şəkildə işləməkdədir. Bir vaxtlar əleyhdarları tərəfindən "boru xülyası" adlandırılan Bakı-Tbilisi-Ceyhan hazırda normal qaydada işləyir. Ötən 15 ildə "Şahdəniz" özünün dünya səviyyəli nəhəng bir yataq olduğunu sübut edib.

İndiyədək "BP Azərbaycan" Azəri-Çıraq-Günəşli yatağından 1 milyard bareldən artıq neft hasil edib və onun yarıdan çoxu BTC vasitəsilə nəql olunub.

TO BP STAFF AND BUSINESS PARTNERS

Today marks BP's 100th anniversary - a special moment in the history of the company. On 14th April 1909, the Anglo-Persian Oil Company, later renamed BP, was incorporated to develop the Masjid-i-Suleiman field in Iran, the first commercial oil discovery in the Middle East.

100 years in business is a significant achievement. Over those years, BP has been, and remains, an organisation with pioneering spirit. Our technology and capability allow us to take on challenges that others are either unwilling or unable to address.


It is not by chance that BP has thrived for so long. Throughout my 27 years in the company, I have observed the ingenuity and passion of our people around the world and have witnessed your dedication to making BP: a company that delivers; a company that wants to make a difference; a company that continuously pushes the frontiers of the industry.

We have a legacy of great assets; our job today is to realise their full potential. We have a lot of momentum - and that gives me great confidence for the future, so thank you for the part you continue to play in that.

After 100 years, I believe our resolve is as strong as ever to provide affordable, sustainable energy for today and tomorrow. Over the next few months, I encourage you to participate in the celebrations of this milestone –watch the new documentary film 'Centenary: The BP Story', reflect on the past and look to the future with pride and a renewed sense of purpose.

Tony HAYWARD

Veysəl AŞİQ



Qəmbərov Veysəl Əlihüseyn oğlu 1987-ci ildə Astara rayonunun Oğəkəran kəndində anadan olub. 2002-ci ildə orta təhsilini A.Hidayətov adına Lovayın kənd orta məktəbində başa vurduqdan sonda Bakı Dövlət Rabitə və Nəqliyyat kollecinə daxil olub, 2006-ci ildə kolleci fərqlənmə diplomu ilə bitirib. Hazırda ixtisası üzrə çalışır. Şeirləri mətbuatda dərc olunur.

GÖZLƏRİMƏ

Nazlı sonam gedən gündən
Zülmət qonub gözlərimə.
Sanki uçub ruh bədəndən,
Hiddət qonub gözlərimə.

Məni yarım yaraladı,
Ürəyimi paraladı.
Ondan mənə nələr qaldı?
Nifrət qonub gözlərimə.

Neyləmişəm o nigara,
Salıb məni ahu-zara?
Yox bir təbib edə çara,
Dəhşət qonub gözlərimə.

Etdi mənə o xəyanət,
Yandı könül, sındı qamət.
Aşiq deyər xəlvət-xəlvət
Həsrət qonub gözlərimə.

DÖN GERİ!

Dolaşır qəlbimdə sənin həsrətin,
Qara gözlüm, nazlı sonam, dön geri!
Məcnun etdi məni bu məhəbbətin,
Qara gözlüm, nazlı sonam, dön geri!

Həsrətindən yandı, kül oldu qəlbim!
Saraldı, bir solmuş gül oldu qəlbim,
Qəm-kədərə indi qul oldu qəlbim,
Qara gözlüm, nazlı sonam, dön geri!

Sənsiz qəmli xəyallar içindəyəm,
Sənsiz üzgün, intizar içindəyəm,
Gözüm yaşlı, ahu-zar içindəyəm,
Qara gözlüm, nazlı sonam, dön geri!

Dözmür ürək ayrılığa, hicrana,
Göz yaşlarım dönüb selə-leysana,
Rəhm eylə gəl, sən bu sevən insana,
Qara gözlüm, nazlı sonam, dön geri!

SAÇIMI DAĞIDAN, EY DƏLİ KÜLƏK!

Saçımı dağıdan, ey dəli külək!
Dayan, gözlə məni, nə olar barı...
Qaçıb bu yerlərdən ikimiz gedək
Tənhalıq harda var düz ora sarı...

Al məni qoynuna sən balan kimi,
Bəsdir saçlarımı çox dağıtmısan.
İndi də sığal çək bir anam kimi,
Deyim ki, uşaqlıq, sən qayıtmısan?!

Ey külək, əlini əlimə uzat,
Yapışsın əlimiz qoy bir-birinə.
Ölmüş ümidimi sən barı oyat,
Yatmış gözlərimdə işiq görünə.

Tənhalıq, sən və mən, ümidli sabah,
Bundan da yaxşımı denən nə olar?
Biz bəndə olarıq, tənhalıq Allah,
Bütün kədər, qüssə arxada qalar.

Ərşad MƏHƏRRƏMLİ,
Humanitar və sosial elmlər fakültəsinin II kurs tələbəsi

MEMUAR

RİÇARD NİKSON



ABŞ-ın 37-ci prezidenti – 1969-1974

MÜƏLLİMLƏR

"Qələbələr və məğlubiyyətlər haqqında xatirələr" kitabından

Beşyaşlı uşaqların əksəriyyəti kimi ən balaca nəvəm Melani Eyzenhauer də bəzən hazırlıq məktəbinə getməyib, evdə qalmağı xoşlayır. Bir dəfə ondan soruşdum ki, niyə məktəbə getmirsən? Cavab verdi ki, məktəbi heç görmək istəmir. Dedim ki, mənim bildiyimə görə, axı o, bu yaxınlarda tanış olduğum müəllimini çox istəyir. Bir an fikirləşib, söz qaytardı: məktəbi görməyə gözüm yoxdur, ancaq müəllimimi sevirəm.

Müəllimə bu isti münasibət onda təsadüfən yaranmayıb. Nənəsi Pet, 1938-ci ildə biz onunla ilk dəfə görüşəndə, Uittiyerdəki orta məktəbdə ən məşhur müəllimələrdən biri idi. Müxtəlif məktəblərdə – orta məktəbdə, Uittiyer kollecində, Dyuk universitetinin hüquq fakültəsində oxuduğum on səkkiz il ərzində pis müəllimlərimin olduğunu xatırlamıram. Amma bir çox yaxşı müəllimlərimi məmnuniyyətlə yada salıram. Mənim bəxtim onda gətirmişdi ki, altmışıncı illərin "mütərəqqi" təhsil islahatlarının tədris proqramlarını kökündən dəyişdirməsindən və təhsilin keyfiyyətini pisləşdirməsindən əvvəl oxumuşdum.

Mənim ilk müəllimim anam olmuşdur. O mənə saatlarla öyüd-nəsihət verir, ev tapşırıqlarını hazırlamağa kömək edir, məndə biliyə məhəbbət oyadırdı. Birinci sinifdə mənə çox görkəmli bir müəllim dərs dedi. Qeyri-kafi aldığım rəsmxətdən savayı bütün qiymətlərim "əla" idi. Beşinci sinifdə miss Barum "Neşnl cioqrefik" jurnalını oxutmaqla mənə coğrafiyanı və bu jurnalı sevdirdi. Yeddinci sinifdə Lüis Koks məndə tarixə maraq oyatdı və sonra kollecdə oxuyarkən onu ixtisas fənni kimi seçdim.

Riyaziyyatı çox çətinliklə öyrənə bilirdim. Lakin mister Miano və miss Ernsberger cəbr və həndəsədə müvəffəq olmağa mənə kömək etdilər. Yaxşı xatırlayıram, Fullerton orta məktəbində oxuyarkən, miss Ernsberger bizə çətin bir ev tapşırığı verdi və dedi ki, kim həll etsə, illik qiyməti "əla "olacaq. Mən axşam saat doqquzda mətbəxdə işə başladım. Ev olduqca soyuq idi, mən qazı yana-yana qoymaqdan əlavə, duxovkanın qapısını da açmışdım. Səhər saat dörddə anam pirojki bişirib dükana göndərmək üçün mətbəxə gəldi. Bir azdan məsələni həll etdim. O vaxtdan məndə belə bir möhkəm inam yarandı: elə bir problem ola bilməz ki, onun üzərində kifayət qədər səylə işləyim, lakin həll edə bilməyim.

Mister Suortlinq hamımızda, hətta indi deyildiyi kimi, "linqvistik fənlər"ə və "ictimai elmlər"ə maraq göstərənlərdə də kimya və fizikaya məhəbbət oyatdı. Şifahi ingilis dili müəllimi Lin Şeller bizə öyrətdi ki, natiq bəlağətli ifadələr işlətmək əvəzinə danışıq dilindən istifadə etsə, böyük müvəffəqiyyət qazanar. Televiziya şifahi nitqə belə ya-

naşmanı zəruri etməmişdən xeyli əvvəl o bu qaydanı mənimsəməyə bizi məcbur etdi. Və mən bütün karyeram boyu onun bu tövsiyəsinə riayət etmişəm. Miss Fink ingilis dilinin vurğunu idi və onun qrammatik qaydalara ciddi riayət etmək tələbi bu günə qədər mənimlədir. Bütün həyatım boyu gördüyüm ən tələbkar müəllim Uitterdəki orta məktəbdə Amerika tarixindən dərs deyən müəllim idi. Bu fikirdə olan tək mən deyildim. Məktəbi qurtarandan neçə il sonra eşitdim ki, onun uşaqlara aşağı qiymət verməsindən narazı olan valideynlərin sayı o qədər çoxalıb ki, onu müəllimlik fəaliyyətindən kənarlaşdırıb, günü uzadılmış qrupda işləməyə göndəriblər. Onun fənni bundan çox şey itirdi. O, mənim çox asanlıqla mənimsədiyim fənni tədris etsə də, ortadan bir az yuxarı səviyyə ilə kifayətlənmək əvəzinə məni qabil olduğum qədər yüksək pilləyə qalxmağa məcbur etdi. Mən həmişə belə hesab etmişəm ki, diş oyuğunu yaxşı təmizləmək üçün sizə ağrı verməkdən çəkinməyən stomatoloq ən yaxşı diş həkimi olduğu kimi, pis qiymət verən müəllim də ən yaxşı pedaqoqdur.

Uittiyer kollecində birinci kurs tələbəsi ikən fransız dili müəlliməmiz Parisdə ikiillik aspiranturanı yenicə bitirib gəlmişdi. "Piqmalion" əsərindəki professor Xiqqins kimi o da təkcə düzgün yazmağı yox, həm də düzgün danışmağı bizdən tələb edirdi. Doktor Pol Smit Amerika tarixi və konstitusiyası üzrə çox gözəl mühazirəçi idi. O, daha çox mütaliəyə olan ehtirası ilə yaddaşımda qalmışdır. Məşğələdə yeni çapdan çıxmış kitablardan bəzi parçaları bərkdən oxuyarkən, sözün əsl mənasında, ağzının suyu axırdı. Tələbələr professora böyük hörmət bəsləsələr də, zarafatla deyirdilər ki, onun "gülsulayan"ının altında islanmamaq üçün birinci cərgədə oturmasan yaxşıdır.

Doktor Albert Alpon ingilis dilinin əsasları kursunu tədris edirdi. Onun təklifi ilə yay tətilində Lev Tolstoyun bütün əsas əsərlərini oxudum.

Xristianlığın intibahı dövrünün fəlsəfəsindən bizə mühazirə oxuyan doktor Qerşel Koffin təlqin edirdi ki, İncili sadəcə oxumaq yox, ondan gündəlik həyat üçün faydalı olan cəhətləri əxz etmək lazımdır.

Uittiyer kolleci müəllimlərinin məni bu gün də təəccübləndirən bir hərəkəti haqqında da danışmaq istəyirəm. 1930-1934-cü illərin böyük böhranı dövründə illik məvacibi 2500 dollar olan dörd nəfər professor kollecə yardım göstərmək üçün könüllü olaraq maaşlarının dörddə birini onun hesabına keçirirdilər.



Dyuk universitetinin hüquq fakültəsində belə maliyyə problemləri yox idi. Tədris cəhətdən də hər şey qaydasında idi. Dekan Castin Miller ölkənin ən istedadlı gənc müəllimlərini tədris işinə cəlb etməyə nail olmuşdu. Sonralar məşhurlaşan müəllimlər – Duqlas Maqqs konstitusiya hüququndan, Çarlz Loundes vergi qanunvericiliyindən, Malkolm Makdermott cinayət hüququndan, Brayan Boliç mülkiyyət qanunvericiliyindən və Klod Xorak istiqraz hüququndan mühazirə oxuyurdular. Onların hər biri öz sahəsinin gözəl mütəxəssisi idi.

Bəziləri təəccüblənəcək ki, siyasi elmlərdən dərs deyən professorları mən heç xatırlamıram. Səbəb odur ki, siyasi elmlərə aid heç bir kursa getməmişəm, heç bir mühazirə dinləməmişəm və siyasi karyera ilə məşğul olmaq istəyənlərə də bunu məsləhət görürəm. Nəyə görə? Ona görə ki, siyasət elm deyil, sənətdir. Bu, insanlarla ünsiyyətdə olmaq sənətidir, onları öyrənməkdir. İnsanları isə siyasi elmlərə aid mühazirələri dinləməklə yox, dükanda satıcı işləməklə daha yaxşı öyrənmək olar.

Təhsil illərində xarici dilləri öyrənmək mühüm məsələdir. Bəziləri düşünə bilər ki, dördillik kurs ərzində latın dilini öyrənmək boş yerə vaxt itirməkdir. Dördillik fransız dili kursunu isə yığcamlaşdırıb, Berlits metodu ilə dörd ayda tədris etmək olar. Dərhal razılaşıram ki, latın dilini öyrənmək faydalı olsa da, vacib deyildir. Hər halda, latın dilini öyrənməyi iki səbəbə görə məsləhət görərdim.

Birincisi, latın dili bütün dillərdən daha çox qaydaya salınmış dildir. Latın dilini bilməyim məntiqi düşünməkdə mənə kömək edir. Latın dilini bilməyin ikinci üstünlüyü ondadır ki, klassik Roma ədəbiyyatından ingilis dilinə edilən tərcümələr, o cümlədən Sezar, Siseron və Virgilinin əsərləri orijinala o qədər də yaxın olmadığına görə, onları orijinaldan oxumaq imkanı əldə edirsən. Bu, fransız dilinə daha çox aiddir. Fransız dili olduqca incə dildir. Bu dildən edilən bədii tərcümələr çox vaxt fransız mətninin əsl mənasını ifadə etmir. Russo, Volter, Monteskye və digər klassiklərin əsərlərini fransız dilində oxuyanda onların əsl ruhunu duymaq olur.

Mənim dövrümdəki təhsil sistemini tənqid



edənlər deyə bilərlər ki, o mənə hər bir insanın gündəlik həyatında qarşılaşdığı praktik problemlərə aid faydalı məlumatlar verməyib. Lakin məhz elə bu da təhsilin məqsədi deyildir. Məktəb şüuru nizama salmalı, ağlı möhkəmləndirməli, düşünməyi və problemləri həll etməyi öyrətməlidir ki, insan dünyanı dərk edə bilsin.

Altmışıncı illərdə məktəblər həm sosial, həm də mədəni cəhətdən iflasa uğradı. Kolleclərdə tədris prosesinə dair problemlərin həlli özlərini müəllimlərdən və müdiriyyətdən daha ağıllı bilərək nəyi və necə öyrənməyi öz səlahiyyətlərinə aid məsələ hesab edən nümayişçi tələbələrin ixtiyarına verildi. Orta məktəblərdə müəllimlər və şagirdlər tədris və təhsildən daha çox vaxtlarını belə boş şeylərin müzakirəsinə həsr edirdilər ki, harda siqaret çəkmək olar – harda olmaz, saçın uzunluğu nə qədər olmalıdır və s. İbtidai məktəblərdə şagirdlər Vaşinqtondan ağılsız məmurların göndərdikləri yeni-yeni səfeh nəzəriyyələrin təcrübə dovşanlarına çevrilmişdilər.

Bütün bu qarmaqarışıqlıqda təhsilin əsas məqsədi unudulmuşdu. Altmışıncı illərə qədər təhsilin vəzifəsi şagirdi cəmiyyətin faydalı üzvü kimi yetişdirməkdən ibarət idi. Bunun sayəsində onlar öz iş yerlərində və ailəni dolandırmaqda məsuliy-



yət hiss edirdilər. Lakin sonra, altmışıncı illərdə "iş və ailə" haqqında fikrin özü olduqca bayağı və qüsurlu hesab edilməyə başlandı. Şagirdləri yalnız ideoloqun və ya nəzəriyyəçinin beynində mövcud olan hansısa qeyri-real dünyanın mədəni və siyasi cəhətdən tam dəyərli vətəndaşına çevirmək təhsilin əsas vəzifəsi hesab edildi.

Yetmişinci illərdə müəllimlər artıq şagirdləri təhqir etmir və ya hansısa başqa formada hökmlərini yeritmirdilər. Əvəzində onlar öz şagirdlərini başa düşməyə, onlarla dostlaşmağa ciddi səy göstərirdilər. Lakin şagirdlərə dost lazım deyildir. On-

lara müəllim lazımdır. Təhsil sisteminin əksər maarifpərvər işçiləri Amerika cəmiyyətinə görə xəcalət çəkərək və bu cəmiyyətin gənclərə hansısa bir mənəvi dəyər təklif edə biləcəyinə ümid bəsləməyərək, Amerika gənclərini talenin ümidinə qoymaqla onlara xəyanət etdilər. Həyatı rok vallarından və vahiməli filmlərdən öyrənmələrinə şərait yaratdılar.

Mənə yaxşı təhsil almaq nəsib olduğuna görə bəzi fikirlərimi oxucuların nəzərinə çatdırmaq istəyirəm. Düşünürəm ki, orta məktəb məzunu artıq Şekspir, Dikkens, Bronte kimi ingilis, Tolstoy kimi rus, Servantes kimi ispan yazıçılarının əsərlərini oxumuş olmalıdır. O, Hobbs, Lokk, Russo, Qandi, Martin Lüter Kinq haqqında nəsə bilməlidir. O, cəbnə qədər səy göstərsələr də, Amerika təhsilinin itirilmiş keyfiyyətini artıq yalnız dollarla bərpa etmək mümkün deyildir. Bunun üçün təhsil sistemindən olan məmurlar tədrisin ənənəvi metod və prinsiplərinə üz tutmalıdırlar; həmin metod və prinsiplər ABŞ-a dünya sənayesinin qabaqcıl mövqelərinə çıxmağa imkan vermişdi.

Şagird az-çox hansısa xarici dili bilməli, Qərb bəstəkarlarının məşhur əsərləri ilə tanış olmalı, xristian, yəhudi, islam, buddizm kimi dinlərin və dünyanın daha bir ən böyük dini olan marksizm-leninizmin ehkamlarından baş çıxarmalıdır. O, öz ölkəsinin tarixini dərindən, dünya tarixini isə müəyyən qədər bilməlidir.





ri, həndəsəni, loqarifmik hesablamanı, biologiya, kimya və fizikanın əsaslarını bilməlidir. Bu fənlərdən şagirdlərimizin zəif olması bizim təhsil sistemimizin ən böyük qüsurunun nəticəsidir. 1957-ci ildə ruslar yerin süni peykini buraxandan sonra Amerika təhsil sisteminin başbilənləri təbii elmlərə və riyaziyyata daha çox diqqət yetirmək məcburiyyətində qaldılar. Birləşmiş Ştatlar hər bir şagirdə Yaponiya, Fransa, İtaliya və Kanadada olduğundan daha çox vəsait sərf edir. Lakin buna baxmayaraq, həmin ölkələrdə şagirdlər imtahanlarda təbiət fənləri və riyaziyyatdan bizim şagirdlərə nisbətən daha yüksək nəticələr göstərirlər. Xüsusi maraqları olan qruplar təhsilə dövlət təxsisatını artırmağa

Yeri gəlmişkən qeyd edim ki, nəvələrim Cenni, Aleks və Kristofer öz dostları ilə birlikdə bizi görmək üçün Seddl-Riverə gələndə, mən onların elmlərdən necə yaxşı baş çıxarmasına, dünya haqqında necə geniş məlumata malik olmasına heyran qalıram. Kolleclərin məzunları ilə görüşəndə də onların nə qədər çox şey bildiklərinə təəccüb edirəm. Məni narahat edən onların biliyinin genişliyi yox, dərinliyidir. Onlar sayıq olmalıdırlar ki, Çembersin məsxərəyə qoyduğu "savadlı adam"a çevrilməsinlər. "Soyuq cümə günü" əsərində Çembers yazır: "Savadlı adama zaman və məkan haqqında hər şey məlumdur, lakin o indi saat neçə olduğunu bilmir."





Bizim çox zəngin irsimiz vardır. Biz onu nə qədər dərindən bilsək, bir o qədər qoruyub saxlaya bilər və övladlarımıza da bir o qədər yaxşı ötürə bilərik. İndi ideallara bir o qədər də əhəmiyyət verilmir. Deyirlər biz kifayət qədər çevik olmalıyıq ki, bu dəyişən dünyada məsələləri həll edə bilək. Lakin bu dəyişən dünyada müəyyən dəyişməz dəyərlərdən möhkəm yapışmağımız daha mühümdür.

Nəhayət, hər şey müəllimlərin üstündə tamamlanır. Dünyanın çox yerində müəllim peşəsi az məvacibli və az nüfuzlu peşələrdən sayılır. Mənim oxuduğum məktəblərin maddi bazasını indiki məktəblərlə heç müqayisə etmək olmaz. Lakin altmış il əvvəl heç bir peşə müəllim peşəsi qədər hörmətə malik deyildi. Biz Yorba-Lindada yaşayanda müəllimlərimiz hər dərs ilinin sonunda, bir qayda olaraq, bizə gələr, ailə naharının qonağı olardılar. Onlar üçün bu, işlərinin bir hissəsi idi. Lakin mən və qardaşım bunu böyük hadisə hesab edərdik. Yaxşı xatırlayıram ki, mən üçüncü sinifdə oxuyanda, belə naharların birində anam desertə gilaslı ev dondurması hazırlamışdı. Mən o vaxtadək bu meyvədən dadmamışdım. Müəllimim dondurmanı yedi, gilaslara toxunmadı. O, gilasları necə acgözlüklə yediyimi görməyə bilməzdi. Buna görə də, onları mənim üçün saxlamışdı.

Biz ümid edə bilmərik ki, uşaqlarımız onlara dərs deyən bütün müəllimləri sevəcəklər. Lakin onların öz müəllimlərinə hörmət etməsi və müəllimlərin də bu hörmətə layiq olması çox mühümdür.

Təhsil sahəsində hər bir islahat təhsilin keyfiyyətinə yönəldilməlidir. Müəllimlərin maaşı ixtisas və staja görə müntəzəm artırılmalıdır. Belə olmasa, uşaqlarımız o qədər geri qalar ki, hər yerdə fəlsəfə doktorlarına ehtiyac duyulacaq növbəti əsrə kəmsavadlar ölkəsi kimi qədəm qoyarıq.

Rus dilindən tərcümə edəni:
Ə. MƏMMƏDOĞLU





DÜNYANIN ƏN GÖZƏL SİYASƏTÇİ QADINLARI









Böyük Britaniyanın "Daily Mail" qəzeti dünyanın ən gözəl siyasətçi qadınlarının siyahısını hazırlayıb.

Ən gözəl siyasətçi qadın adını Perudan olan 30 yaşlı konqresmen Luçiana Leon qazanıb. İkinci yerdə onun həmyerlisi – xarici iqtisadiyyat və turizm naziri, 47 yaşlı Mersedes Arioz gəlir. Üçüncü yeri isə 32 yaşlı meksikalı Sara Lətifə Ruiz Çaves tutub.

"Daily Mail" dördüncü yerə İtaliyanın bərabər imkanlar naziri, 32 yaşlı Mara Karfanyanı qoyub. Qeyd edək ki, xalq arasında "Gözəl Mara" adlanan Karfanya 1997-ci ildə "İtaliya gözəli" müsabiqəsində 6-cı yeri tutub. Beşinci yerdə isə 27 yaşlı yaponiyalı Yuri Fudzikava gəlir.

Ukraynanın baş naziri Yuliya Timoşenko 54 qadın arasında 8-ci yeri tutub.

Rusiya Dövlət Dumasının deputatı, bədii gimnastika üzrə olimpiya çempionu Alina Kabayeva 12-ci yerdədir. ABŞ vitse-prezidentliyinə keçmiş namizəd, Alyaska qubernatoru Sara Pelin 24-cü yeri tutub. ABŞ-ın hazırkı dövlət katibi, 61 yaşlı Hillari Klinton isə 34-cü yerə qoyulub.





LENT.AZ







PROZA

Cahangir Suraxanlı



Quliyev Cahangir Ağaəmi oğlu 1934-ci ildə Bakının Yeni Suraxanı qəsəbəsində anadan olmuşdur. Orta məktəbi 1953-cü ildə bitirmiş, elə həmin il Azərbaycan Politexnik İnstitutunun İnşaat fakültəsinə daxil olmuşdur. 1958-ci ildə institutu bitirəndən sonra dəmir-beton zavodunda və tikintidə çalışmış, sonra layihə işinə keçmişdir. 1964-67-ci illərdə politexnik institutunun aspiranturasında təhsil almış, dissertasiya işi müdafiə edərək, texnika elmləri namizədi alimlik dərəcəsi almışdır. Həmin vaxtdan etibarən institutun (hazırda Azərbaycan Memarlıq və İnşaat Universiteti) müəllimidir, dosent vəzifəsində çalışır. Bir neçə dərsliyin müəllifidir.

MÜCRÜ

sənədli hekayə

Taxtanın səthi ilə bərabər səviyyədə sarı metaldan nazik xətlər kiçik mücrünün hər üzündə bir formada olan nəbati naxışlar təşkil edir. Bu naxışlar göz oxşayır, baxdıqca, baxmaq istəyirsən. Qapağını qaldırsan, daxili səthi örtən yaşıl məxmərin üstündə bir cüt qəribə zər, üç manat pul görərsən.

***

– Sara xanım, bir dəftər tapmışam, orada atanız Hacı haqqında da bir hekayə var. İstəyirəm əvvəlcə onu siz oxuyasınız və fikrinizi deyəsiniz.

– Siz kimsiniz?

– Müəlliməm. Tələbələrdən birinin babası vəfat etmişdi. Nənəsinin xahişi ilə onlara getdim. Çoxlu kitabları var idi. Məndən xahiş etdilər ki, kitablara baxım. Kitabların əksəri ərəb əlifbası ilə olduğundan məzmununu bilmirdilər. Bilmək istəyirdilər ki, dəyərli kitablar isə, onları ehtiyac olan yerlərə necə təqdim etsinlər. Baxdım, çoxlu qiymətli kitablar və əlyazmalar var idi. Onların 37-ci ildən necə salamat çıxdıqları və indiyə qədər qaldıqları təəccüblü idi. Məni bu dəftər çox maraqlandırdı. Bu hekayə atanız haqqında olduğu üçün sizin oxumağınızı və münasibətinizi bilmək istədim.

– Keçin içəri.

Onlar yarımzirzəmi, alaqaranlıq nəm daxmaya daxil oldular. Sara xanım köhnə, cırıq mitil örtülmüş dəmir çarpayının üstündə yerini rahatladı, müəllim laxlayan yeganə kətilin üstündə oturdu. Sara xanım dəftəri açdı, onu arıq əlləri ilə artıq nuru getmiş gözlərinə yaxınlaşdırdı, zəif lampa işığında heç nə ayırd edə bilmədi.

– Bəlkə siz oxuyasınız, gözlərim çox zəifdir, heç nə görmürəm.

Müəllim dəftəri aldı, eynəyinin şüşəsini sildi, gözünə taxdı və oxumaga başladı.

...Təbrizin zəngin və gözəl mehmanxanalarından biri. İkinci mərtəbədə kiçik qonaq zalı.Döşəməyə Azərbaycan xalıları döşənmişdir. Qapıdan sağ tərəfdə açıq pəncərələrdən əsən sərin meh nazik pərdələri asta-asta tərpədir. Qarşı divarda yağlı boya ilə çəkilmiş meşə təsviri bütün divarı tutur. Pəncərədən düşən işıq nadir sənət əsərini tam incəliyi ilə göstərir. Ağacların yaşıl rəngi əsəbləri sakitləşdirir, diqqətlə baxanda özünü təbiətin gözəl güşəsində hiss edirsən. Otağın baş tərəfində pəncərənin qarşısında musiqiçilər dəstəsi oturmuşdur. Udu sinəsinə sıxan yaşlı kişi "Şur"un "maye" hissəsini elə həzin çalır ki, nəinki dinləyicilər, musiqiçilər də sanki ayrı aləmdədirlər. Qonaqlıq davam edir.

Otağın səliqə-səhmanı, qulluq edən xidmətçilərin geyimi, davranışı, qonaqların təmkini qonaqlığın adi yemek məclisi olmadığı təsiri bağışlayırdı.Yuxarı başda sadə, lakin çox səliqəli geyinmiş Hacı Zeynalabdin Tağıyev oturmuşdu. İki nəfər sağ, iki nəfər sol tərəfində oturanlar onunla gəlmişlər. Sağ tərəfdə üçüncü yerdə mehmanxananın sahibi Məşədi Əsəd oturmuşdu. Qalan qonaqlar Təbrizin məşhur adamları, sərvət sahibləri idilər. Qonaqlara gözəl geyimli qəşəng qızlar qulluq edirlər. Hacının isə qulluğunda bir qız və bir cavan oğlan durmuşdur. Oğlan bir qədər kənarda dayanmışdır, lazım olanda qızın işarəsi ilə yaxınlaşır, deyilənə dinməz əməl edirdi. Hacının əhvalı yaxşı idi. Görünür, üç gün ərzində bəzi müəssisələrlə apardığı danışıqlardan, bağlanan müqavilələrdən razı idi.

Musiqi susan kimi qonaqlığı təşkil etmiş, mehmanxananın və bir neçə müəssisənin sahibi milyoncu Məşədi Əsəd ayağa durdu və sözə başladı:

- Müraciətim mənəvi atamız Hacı Zeynalabdin Tağıyevədir, ancaq xahiş edirəm hamınız diqqətlə qulaq asasınız. Yəqin ki, Təbrizə gəldiyiniz üç gün ərzində sizə edilən qulluqdan narazı deyilsiniz. Sizi qarşılayan və qulluğunuzda duran cavan oğlumdur. Hər gün sizə xidmət edən isə mənim kiçik qızımdır. İndi də hər ikisi sizin qulluğunuzdadır. Dediklərimi başqa mənada qəbul etməyin. İki ildir sizi burada qəbul etməyə hazırlaşırdıq. Qızımla oğlum sizi görməyi və xidmətinizdə durmağı istəyirdilər. Buna səbəb evdə elədiyim söhbətlər, həmçinin sizin nəcibliyiniz və xeyirxahlığınız haqqında xalq arasında gəzən əhvalatlardır. Sizin qiymətinizi tarix özü verəcək.

Sara xanım başını qaldırdı, acı təbəssümlə:

-Bəli, 60 ildən çoxdur ki, onun qiyməti verilir. Ömrünün axırında bir köynəyi vardı, üstündə iki yamaq - ardını oxu.

Dediklərimi yaltaqlıq zənn etməyin. Artıq alvermiz edilib, danışıqlarımız başa çatıb, sabah Bakıya yola düşürsünüz. İstəyirəm urəyimdəkiləri deyim ki, sakit olum. Dünən xalça karxanasında toxucu uşaqlarla söhbət edirdiniz.Uşaqların səmimi danışığından razı qaldığınızı hiss etdikdə, sevincimin həddi-hüdudu yox idi. Sizin razı qalmağınızı düz hərəkət etdiyimə sübut kimi qəbul edirdim.Digər müəssisələrimdə də həmin iş üsuluma sadiqəm. Bir iş görmək istəyəndə həmişə öz-öümdən soruşuram: bu iş Hacının xoşuna gələr, ya yox. Əgər "hə" cavabı almışamsa, o işi icra etmişəm. Belə olan halda hər tərəfdən üstümə ruzi tökülmüşdür.

17 il əvvəl, 1896-cı ildə Bakıda hamballıq edirdim. Avqustun axırları idi. Bir neçə gün idi ki, özümü pis hiss edirdim. Onsuz da ariq vicuduma baxanlar mənə iş vermirdilər. İki gün idi heç bir şey qazanmamışdım. Ac idim. Ayaqlarımı güclə sürüyürdüm. Yadıma düşəndə ki, evdə tək qalan qoca anama on gün ərzində heç nə göndərməmişəm, əhvalım daha da pisləşirdi. İş axtara-axtara yaşadığınız evin yanından keçəndə halsızlaşdım. Pəncərənin altında səkinin kölgəli yerində oturdum. Palanımı altıma qoymuşdum, təsküləhımı götürüb başımın tərini sildim və dizimə keçirtdim. Bu an ürəyimdən allaha asilik keçdi. Fikirləşdim ki, deyirlər allah adildir, hər şeyi görür, bəs məni niyə görmür? Hanı ədaləti?

Əyri yola gedə bilmirəm, halal zəhmətlə dolanıram, zəhmətimi də məndən qərib salır. Ancaq Hacıya gör necə cəlal qismət edib. Öz-özümlə beləcə danışdığım anda başıma nə isə bir şey dəydi. O saat "əstərqfürullah" dedim. Fikirləşdim ki, allaha asi olub, öz-özünə şikayət etmək də qadağandır. Ona asi olan kimi adamın başından vurur... Başıma dəyən cisimləri götürdüm, qəribədir, iki iri zər idi, lakin hər üzündə altı qaş bərkidilmişdi. Əvvəlcə qorxdum, zərləri gizlətdim, yuxarıya pəncərəyə baxdım. Heç kəs yox idi. Nə edəcəyimi kəsdirə bilmədim. Bu vaxt siz pəncərədən baxdınız. Başa düşdüm ki, zərlər yalnız açıq pəncərədən atılmış olar, məndə nə isə qəribə bir hiss oyandı. Tez oradan uzaqlaşdım. Dörd-beş tin getməmişdim ki, ikimərtəbəli mülkün birinci mərtəbəsindəki restorana yaxınlaşanda içəridən səs-küy eşitdim. Mən qapının bərabərinə çatanda qapı açıldı, əlinin üstündə dəsmal, cavan xidmətçi qapıdan çıxdı və mənə əl elədi:

-Adə hambal, bura gəl! Get qabaqdakı küçədə, iri göy darvazalı böyük mülkün həyətində bənna Məşədi Həsən işləyir. Onu tap gətir, de ki, ağam çağırır.

Tez həmin həyəti tapdım, sifarişi Məşədi Həsənə dedim. O, uşaqlara görəcəkləri işləri tapşırdı, alətlərini önlüyünə bükdü – gedək – dedi. Restorana girdik, gördük ki, orta sinli iki nəfər üzü divara dayanmışdır. Restoranın sahibi onları sakit edir – bu saat usta gələcək – deyirdi.

Restoran sahibi Məşədi Həsəni başa saldı ki, bu cavanlar bu divardan keçməlidirlər. Onların ölçüsündə divarı kəs, onlar çıxsınlar, sonra həmin yeri tikərsən.

Bənna kömək etməyi mənə təklif etdi. İşə başladıq. Təxminən bir saata divarı kəsdik. Həmin iki nəfər divardan keçdilər. Restoran sahibinə və bənnaya nə verdilər bilmirəm, mənə on iki manat pul verdilər.

Sonra bildim ki, o iki nəfərdən nisbətən cavan olanı balaxanlıdır. Ata mülkünün həyətində qazdırdığı neft quyusu fontan vurub. Dostu ilə yol keçərkən restorana girib, çörək yeyiblər. Yarımsərxoş halda ayağa duranda bir anlığa istiqaməti itirir, üzü qapıya yox, üzü divara tərəf addımlayır. Yoldaşı deyəndə ki, qapı əks tərəfdədir, söz ona xoş gəlmir – mənim üçün hər tərəfdə qapı var – deyir. Divara çatır, qışqırır ki, restoranın sahibi gəlsin. Sahib gəlir – nə buyurursunuz – deyə soruşur. Mən buradan keçmək istəyirəm – deyir. Restoran sahibi bu yeni neftxudanı tanıyırmış və xasiyyətinə bələd olduğu üçün onu sakitləşdirir, xidmətçini bənna üçün göndərir. Həmin o vaxt imiş ki, mən qapıya yaxınlaşır və səs - küy eşidirəm.

Restoran sahibi öz növbəsində bizi yaxşıca yedirtdi. Oturduğum yerdə yenə fikrə dalıram.

İlahi, kərəminə şükür, nə qədər gözlənilməz, sirli hikmətlərin var. Üç saat əvvəl ac, xəstəhal, taqətsiz bir vəziyyətdə idim. İndi qarnım tox, cibimdə on iki manat pul, palanımın cırıqlarında iki qızıl zər, üstündə yetmiş iki qaş var.

Restorandan çıxdım. Həmin gün fayton kirayə elədim və Təbrizə yola düşdüm. Təbrizdə zərləri tanış zərgərə göstərdim. Məlum oldu ki, zərlər həqiqətən qızıl, qaşları isə briliantdır. Əvəzində mənə çoxlu pul verdi. Pulun bir hissəsini verdim, dunən olduğumuz dukanı aldim. Həmin gündən hər tərəfdən üstümə ruzi tökülür. Xüsusən sizinlə elədiyim ticarətdən gələn gəliri nə qədər ehtiyac olan yerə sərf edirəmsə, sərmayəm o qədər də çox artır. Artıq neçə ildir sizi burada qəbul edib, qulluğunuzda durmaq istəyirdim. Hiss edirəm ki, çox yaşamayacağam, halallıq istəyirəm. Bütün bu var-yoxa həmişə izin sərvət kimi münasibət bəsləmiş, özümü sizin işçiniz kimi hiss etmişəm.

Hacı ayağa qalxır. Ev sahibi onun qabağına gəlir, diz çökür. Hacı onu qaldırmaq üçün əyilir, lakin gözlərində göz yaşlarını görcək özünü saxlayır, hiss edir ki, dedikləri ürəkdəndir. Ürəyini boşaldıb, sakitləşməyə ona imkan verir.

– Hacı, çox sağ ol, malına yiyə dur. Bu illər ərzində biz də firavan yaşamışıq, xərclədiklərimiz üçün halallıq istəyirəm.

Hacı onun əllərindən tutub, ayağa qaldırdı. Hamı ayaq üstə idi. Zalda sakitlik hökm sürüdü. Elə bil ki, heç kəs nəfəs belə çəkmirdi.

– Sən ki sərvətin qədrini bilmisən, onun əsiri olmamısan, onu sərf etməyi bacarırsan, hər şey sənə ana südü kimi halaldır. Necə varsan, elə də ol!

Hacının baxışları atasının arxasında dayanmış qızın baxışları ilə rastlaşanda nə isə bir övlad mehribanlığı hiss etdi. Yadına, səhər qıza nə üçünsə üç manat verdiyi vaxt, qızın pulu alıb, ona baxması və qəribə baxışla dönüb getməsi düşdü. Fikirləşmişdi ki, bəlkə xidməti qarşısında zəhmət haqqı bilmişdir, onda yəqin ki, narazı qalacaqdır.

Qız elə bil ki, Hacının fikrindən keçənləri oxuyurdu.

– Yəqin sizdən pulu alarkən keçirdiyim hal sizi maraqlandırır. Onu ömrüm boyu saxlayacağam, bilirəm, o mənə xoşbəxtlik gətirəcək, axı ona sizin əliniz toxunmuşdur. Dədəm deyir ki, siz hara pul sərf edirsinizsə, ora abadlaşır, insana pul sərf edirsinizsə o da dəyişir, xeyirxahlaşır. Sizin pulunuz və zəhmətiniz ancaq yaxşılığa çevrilir.

Hacının gözləri yol çəkdi. Nərimanın xəyalı qarşısında peyda oldu. O, başını silkələdi – həmişə yox, qızım – dedi.

Qonaqlıq davam edirdi. Hamı yeməklə məşğul idi. Udda "Bayatı-şiraz" çalınırdı.

Ud susan kimi həkim Hamidi sağ tərəfində ikinci yerdə oturmuş ağ saçlı kişiyə müraciət etdi:

– Mirzə Muxtar, eşitdiyimə görə, Hacı çox az hallarda nərd oynayarmış və deyilənə görə ən çox da sizinlə oynamağı üstün tutarmış. Yəqin ki, həmin zərlər haqqında nə isə deyə bilərsiniz. Ev sahibi sizin bu məclisdə olmağınıza çox çalışırdı. Sizin səyahəti sevmədiyiniz onu çox məyus etmişdi. İşini çətinləşdirmişdi. İndi bildik ki, nə üçün nigarançılıq çəkir və sizin mütləq iştirak etməyinizi arzu edirmiş. Yəqin ki, pəncərənin qabağına, Hacıya yaxınlaşan da siz olmusunuz.

Mirzə Muxtar dodaqlarını və əllərini sildi, hiss edilirdi ki, "Bayatı-şiraz"ın ecazkar təsirindən hələ ayrıla bilmir.

O, Hacıya tərəf döndü, onun gülümsədiyini görüb, belə nəql elədi:

– Hadisə çoxdan olduğu üçün tarixi yadımda deyil, ancaq zərlər yadımdadır. Bir axşam Hacıgildə idim. Əhvalı çox yaxşı idi. Mən getmək istədikdə Hacı məni saxlayıb dedi ki, dayan nərd oynayaq. Nərd olan otağa keçdik. Kiçik otağın parket döşəməsinə qalın xalı döşənmişdi. Pəncərənin qabağında stol-nərd qoyulmuşdu, elə ki, pəncərədən işıq nərdin üstünə düşürdü. Pəncərənin hər tərəfində bir stul qoyulmuşdu. Hacı həmişə elə oturardı ki, pəncərə sağ tərəfində qalardı.Qarşı divarda isə gözəl bağ təsviri olan nəfis xalça asılmışdı. Otaqda diqqəti cəlb edəcək əlahiddə bir şey yox idi. Hacı nərd oynayarkən qapı bağlı olmalı idi. Heç kəs bu otağa girməzdi.

Stolun üstü incə naxışlarla işlənmiş gözəl nərd-taxta idi. İri zərlər təmiz qızıl, qırx iki qaşı isə saf briliant idi. Zərləri Hacıya bağışlamışdılar. Zərlərə uyğun nərd-taxtanı isə Hacı xüsusi sifarişlə düzəltdirmişdi.

– Nərd-taxtanı zərlər ilə birlikdə 20-ci ildə zəbt etdilər, sonrakı taleyi məlum deyil, heç bir muzeydə də yoxdur – deyə Sara xanım izah etdi.

Nərd oynamağa başladıq. Oyunun axırında Hacının şeş xanada üç daşı, mənim yek və du xanalarda iki daşım qalmışdı. Zərləri Hacı atacaqdı. Hacı zərləri əlində oynadır və atmağa tələsmirdi. Zərlərə xeyli baxdı və birdən dedi:

– Bu oyunu udacağam. Amma zərləri indi atmıram, qoy oyun beləcə qalsın, sənə xəbər göndərərəm, gələrsən, oyunu davam edərik.

Mən xudahafizləşib çıxdım.

İki-üç gün keçdi, məni dəvət edən olmadı. Fikirləşdim ki, yəqin Hacının yadından çıxmış olar, onsuz da o qədər işi olur ki, yəqin nərd heç yadına düşmür. Lakin bir neçə gün keçmiş Hacı məni çağırtdırdı. İşi var idi. Bir neçə tapşırıq verəndən sonra oyunu xətm etməyi təklif etdi. Yenə nərd olan həmin otağa keçdik. Nərd olduğu kimi dururdu, pəncərə açıq idi. Zərləri əlində oynatdı, sonra onları kənara qoyub dedi:

– Təzə zərlər almışam. gəlsənə onları yoxlayaq.

Durdu paltarının cibindən zərləri götürdü, əlində oynadaraq pəncərəyə yaxınlaşdı, baxdı, yenə öz yerində oturdu.

– Mirzə Muxtar, zərləri atıram, qoşa şeş olsa, pəncərədən atacağam. Sonra düşərik aşağı, qismətində varsa, onları sənə bağışlayacağam.

O, zərləri əlində oynatdı, atdı, nə gizlədim, ürəkdən arzuladığım qoşa şeş düşdü. Özümə gəlməyə imkan vermədi, zərləri sağ əli ilə götürüb küçəyə tulladı.

– Atam heç vaxt küçəyə qızıl atmaz – deyə, Sara xanım dilləndi. Mütaliəni dayandırdığını gördükdə – oxu – dedi.

Pəncərəyə qaçmaq istəsəm də, özümü saxladım. Heç bir şey başa düşmədim. Axı, Hacı çölə pul atan deyildi, qəribə hal idi. Hacı yerindən qalxdı, pəncərəyə tərəf getdi, baxdı, sonra üzünü mənə tərəf döndərdi. Mən ona yaxınlaşdım, heç kəs yox idi. Hacı gülümsünürdü.

– Düşək aşağı – dedi.

Aşağı düşdük, nə zərlər var idi, nə də bir kəs. Heç bir şey demədim. Qismət deyilmiş. Xudahafizləşib getdim.

Bu hadisə yadımdan çıxmasa da, Hacı söhbəti açmadığı üçün heç bir şey soruşmadım və bu haqda heç kəsə heç bir şey deməmişəm. İlk dəfədir bunu danışıram.

Hacı bu söhbətə diqqətlə qulaq asırdı.

– Mirzə Muxtar, indiyə qədər elə bilirsən ki, qoşa şeş düşmüşdü, yox. Mən gözləyirdim ki, əvvəl - axır sual verəcəksən. Sən isə susurdun. Yəqin ki, səni sınadığımı düşünürdün. Əslində, məsələ elə deyildi, lakin susmağın xoşuma gəlirdi. Fikrimcə, kişi ağzıbütöv olmalıdır, bu bir növ kişinin ləyaqətidir. Buna görə sənə xüsusi hörmətim var.

O zərləri zərgər Məmmədəli düzəltmişdi. Bir neçə böyük sifarişi olanlara onu nişan vermişdim. Sifarişi yerinə yetirmək üçün çoxlu almaz, briliant almışdı. Çox təmiz adam idi. Sifarişim olanda ona müraciət edərdim. Nərd oynadığımız gündən bir həftə qabaq Zərgərpalandan keçirdim. Fikirləşdim ki, həm sifarişimi ona deyim, həm də bir qədər söhbət edək.

Yorğun görünürdü. Məni görcək işini saxladı. Elə bil ki, məni çoxdan gözləyirdi. Sözarası bunu etiraf etdi. Sonra dedi ki, aldığı sifarişləri yerinə yetirib, işi bəyənilib, yüksək qiymətləndirilib, yaxşı da qazancı olub. Lakin yetmiş bir briliant xətalı imiş. Onlara mikroskop ilə baxdıqda, daxilində nöqtələr görünür. Bir şeyə bərkidildikdə isə onlar görünmür. Neçə vaxtdır onlardan nə düzəldəcəyimi fikirləşirdim. Lakin heç kəsi də aldatmaq istəmirdim. İki gün qabaq yuxuda ağ əmmaməli, ağ çuxalı, əlində kitab tutmuş, pirani bir qoca gördüm. O, mənim əl işlərimə baxdı. Bu briliantlara nəzər salıb dedi ki, bunları qədrini bilən, əməli-saleh adama ver, qazanc güdmə, xeyir görərsən. Kimi nəzərdə tutduğunu soruşmaq istədim, lakin o qeyb olmuşdu. Bu şəhərdə əməli - saleh, hər şeyin

qədrini bilən kişi kimi səni daha üstün tuturam. Ona görə səni görməyi arzulayırdım. Nə istəyirsən, de hazırlayım.

Nərd oyunu üçün zərlər yadıma düşdü. Bizim zərləri görmüşdü. Həmin cür düzəltməyi təklif etdim. Dedi ki, zərlər üçün qırx iki qaş kifayətdir, başqa nə düzəldim. Dedim ki, bir təmiz briliant da əlavə etsin və hər üzdə altı qaş yerləşdirsin. Təəccüblə üzümə baxanda söylədim: qoy bu xətalı briliantlar bir yerdə elə cəmləşsin ki, bir daha heç zaman saf daş-qaşa qarışıb, heç kəsi rəncidəxatir etməsin. Usta zərgər heyrətlənsə də, təbəssümü ilə bu təklifimi təqdir etdiyini bildirdi. Sənə deyəndə ki, oyunu təxirə salaq, zərlərin bir neçə gündən sonra hazır olacağını nəzərdə tuturdum. Zərləri küçəyə atmaqda da məqsədim var idi. Düşünmüşdüm ki, əgər həmin qaşlar mənə qismət isə, onları tapacaq və sənə bağışlayacaqdım. Tapmasaq, kimə qismət isə, ona xeyir versin.

Mən pəncərənin qarşısına gələndə yuxarı baxan hambalın baxmasından başa düşdüm ki, zərləri tapıb, istədim ki, sən də onu görəsən, ancaq sən pəncərəyə yaxınlaşanda artıq o görünmürdü. Ömrümdə bircə dəfə bir anda fikrimdən keçəni icra etmişdim. Peşiman idim. Ancaq gec idi. Səhv etmişdim. Lakin zaman göstərdi ki, bir dəfə səhv etmişəm, onu da Allah düzəldib.

Hacı üzünü ev yiyəsinə tutub soruşdu:

–Zərləri alan zərgər dururmu?

–Xeyr.

–Əfsus, o zərləri hansı qiymətə desəydi, alardım.

Ev sahibi gülümsədi:

–Vəziyyətim yaxşılaşan kimi o zərləri bir neçə qat baha qiymətə almışam.

Başı ilə oğluna işarə etdi. Bir neçə dəqiqədən sonra o, içində zərlər olan mücrünü ehtiramla Hacıya verdi. Hacı mücrünün naxışlı qapağını qaldırıb, zərləri əlinə aldı, heyranlıqla onlara baxdı. Mücrü əl-əl gəzdikdən sonra yenidən Hacıya qaytarıldı. Hacı bir də zərlərə diqqətlə baxdı.

–Deməli, əməli - saleh, qədir bilən sən imişsən. Al, halaldır, saxla.

Ev yiyəsi Hacının qarşısında diz çökdü, əvvəlcə Hacının əlini, sonra mücrünü öpdü.

Dəftər oxunub qurtarandan sonra Sara xanım dedi:

–Eşitdiyimə görə, Təbriz şəhərində Məşədi Əsədin varislərini ziyarət edənlər həmin mücrünün indi də əziz saxlandığının şahidi olurlar. Bakıda olsaydı, o da 20-ci ildə nərd-taxta kimi, kim bilir kimlər tərəfindən zəbt olunub aparılacaq, itib batacaqdı.

***

Pir Həsən qəbristanlığı. Gözəl, incə naxışlı, baxımsızlıqdan görkəmi pərişan olmuş türbənin ayaq tərəfində sadə baş daşı olan qəbir.

Əynində qolları yeyilmiş nimdaş göy pencək, balaqları yeyilmiş qəhvəyi şalvar geymiş, ortaboylu, ağsaçlı, əlində qalın dəftər tutmuş bir kişi baş daşı ilə üz-bəüz dayanmış, sehirlənmiş kimi diqqətlə ona baxır. Bir neçə qoca kişi əvvəlcə bu iki qəbrin arasında dayanıb fatihə verir, sonra digər qəbirləri ziyarət etməyə gedirlər.

Əlində dəftər tutan ağsaçlı kişi dodaqları altında pıçıldayır:

–Qədrin bilinməsə də, xalqın ürəyində xatirən əziz saxlanılır. Allah sənə rəhmət eləsin!

Sonra bağların arasıyla yorğun adam yerişi ilə üzü aşağı, dənizə tərəf addımladı...

Uşaq dünyası

"Xəzər Xəbər" toplusunun məktəblilər üçün əlavəsi

Tanış olun: Ləman Abbasova



IIIa sinfində bir qız oxuyur: Ləman Abbasova. İlk baxışdan yaşıdlarından heç nə ilə fərqlənməyən bu qız dünyagörüşü, həyata baxışları ilə diqqətimi cəlb etdi. Onu sizinlə tanış etmək qərarına gəldim. Eyni zamanda, "Təbiət haqqında düşüncələrim" adlı inşa yazısını da təqdim edirəm.

Şəhla NƏBİYEVA,
məktəbin müəllimi

– Ləman, vətən sənin üçün nə deməkdir?

– Vətən mənim üçün ana deməkdir, çünki vətən də anamız qədər müqəddəsdir.

– Necə insanı vətənpərvər insan adlandırırlar?

–Vətənini canından çox sevən, qoruyan, dərslərini yaxşı oxuyan insanı.

– Həyatda ən çox kimə oxşamaq istərdin? Nə üçün?

– Anama, çünki anamı hamıdan çox sevirəm.

–Kimin etdiyi söhbət səni daha çox maraqlandırır?

– Dostlarımın və qardaşımın etdiyi söhbətlər mənim üçün çox maraqlıdır.

– Hansı xahişi daha həvəslə yerinə yetirərsən?

–Yoldaşlarıma dərslərində böyük həvəslə kömək edərəm.

– Ən çox sevdiyin fənn hansıdır? Nə üçün?

– Oxu dərsini çox sevirəm, çünki bu dərsi daha yaxşı başa düşürəm

– Bir anlıq təsəvvür et ki, dünya beş dəqiqəlik sənin ixtiyarına verilib. İlk növbədə nə edərdin?

– (çox fikirləşir) Ata - anamı sevindirərəm.

– Səncə, ata - ananı daha çox nə sevindirər?

–Mənim xeyirxahlığım, dərslərimi yaxşı oxumağım...

Təbiət haqqında düşüncələrim

Təbiət ən böyük yaradıcı qüvvədir. İnsana lazım olan bütün nemətlər təbiət tərəfindən yaradılıb. Təbiətdə hər şey gözəl yaranıb: gur şəlalələr, buz bulaqlar, uca dağlar, yaşıl çəmənlər və s. Bütün bunlar insana xüsusi zövq verir. Sıra dağlar, gen dərələr, ürək açan mənzərələr, ceyranların qaçması, cüyürlərin mələşməsi, yaşılbaş sonaların göldə üzməsi hər birimizi heyran edir.

Təbiətdə müşahidələr aparmaqla biz öyrəndik ki, martın 21-dən 22-nə keçən gecə gündüzlə gecə bərabərləşir. Bu, qışın sonu, yazın ilk gününə təsadüf edir. Həmin vaxt təbiətlə bərabər insan ruhu da oyanır. Yəni budaqlarda tumurcuqlar oyandığı kimi, insan ürəyində də həyat eşqi cücərir. Təbiətlə insan ruhunun oyandığı gün bir vaxta düşdüyündən ulularımız həmin vaxtın bayram edilməsini məsləhət gördülər. Bu bayram bizim sevə-evə qeyd etdiyimiz Novruz bayramıdır. Mən təbiət haqqında fikirlərimi bir bənd şeirlə tamamlamaq istərdim.

Yenə də yamyaşıl geyinir dağlar,
Göz kimi durulur qaynar bulaqlar,
Əriyir güneylər döşündəki qar,
Yağış da isladır o göy çəməni,
Təbiət ilhama çağırır məni.

MARAQ DÜNYASI



❋ *Avtomobillər dəqiqədə 2 insan öldürür.*
❋ *Abş-da həftədə orta hesabla 88 şagird sinfə silahla girir.*
❋ *Pişiklər ultrabənövşəyi şüanı görür.*
❋ *Dəvə bir dəfəyə 250 litr su içir.*
❋ *Çəyirtkənin qulağı ayağında olur.*
❋ *Dəniz ulduzları akulani da tutub yeyə bilirlər.*

BİLİRSİNİZMİ?

❋ *Xərçəngin qanı göy rəngdə olur.*
❋ *Siçan dəvədən çox susuz qala bilir.*
❋ *Delfin bir gözünü açıq qoyaraq yatır.*
❋ *Bütün tarix boyu Nil çayi iki dəfə – 9 və 11–ci əsrlərdə donub.*
❋ *Dünyada siqaret çəkənlərin 82 faizi inkişaf etməkdə olan ölkələrdə yaşayır.*
❋ *Dünyada ən azı 300 min nəfər şəxsi fikir və düşüncəsinə görə həbsxanada yatır.*
❋ *Toqo dövlətində qadına xoş söz deyən kişi mütləq onunla evlənməlidir.*
❋ *Dünyada ən çox televizora baxan yaponlardır. Adi yapon gündə 9 saat televizora baxır.*
❋ *Italiyada ən çox yayılmış ad və soyad Mario Rossidir.*
❋ *Don Kixotun əsl adı Alonso Kexadadır.*

Toplayanı:
Pərviz MƏMMƏDOV,
VI c sinif şagirdi

BİR QADIN TANIYIRAM...



Bir qadın tanıyıram... Gülər üzlü, saf qəlbli, təmiz baxışlı... Çəkdiyi rəsmlərdən yaşadığı həyatın sevincini və maraqlı anlarını görürəm sanki... Bu qadın Azərbaycan Rəssamlar Birliyinin üzvü, dekorativ tətbiqi sənət sahəsinin bədii toxuculuq növündə uzun illər və uğurla fəaliyyət göstərən rəssam Fəridə Hacıbaba qızı Hüseynovadır. Rəssamlıq məktəbini, sonra isə Azərbaycan Dövlət İncəsənət Universitetini fərqlənmə diplomu ilə bitirib. Dünya şöhrətli xalq rəssamı Tahir Salahovun tələbəsi olmuşdur.

35 ildən artıq yaradıcılıqla məşğul olan, Azərbaycan qobelen divar monumental sənətində ilk əsər yaradan və bu sənətin təməlini qoyan, əsərləri Azərbaycan Dövlət Xalça Muzeyində, respublikanın Bədii Fondunda, Moskvanın Dövlət Tarix Muzeyində və Rusiyanın Bədii Fondunda saxlanan Fəridə xanım zəngin bir sənət yolu keçmişdir. "Современный советский гобелен" ("Müasir sovet qobeleni") toplusunda keçmiş sovet respublikalarının görkəmli nümayəndələri arasında yeganə azərbaycanlı rəssamdır ki, "Od rəqsi" adlı işi ilə təqdim olunub.

Fəridə xanım yağlı boya ilə rəngkkarlıq, ipək üzərində rəngkarlıq sahəsində, Azərbaycan suvenirləri üzərində işləyir. O, Azərbaycan Dövlət Incəsənət Universitetində dosent vəzifəsində çalışmış, hazırda isə Azərbaycan Dövlət Rəssamlıq Akademiyasında bu vəzifəni daşıyır. Gənclərə yaradıcılığın sirlərini öyrədir, onlardan öz bilik və təcrübəsini əsirgəmir. Eyni zamanda, Xəzər Universitəsi və onun nəzdində fəaliyyət göstərən







"Dünya" məktəbində fəaliyyət göstərən Fəridə xanım uşaqlarda bu yaradıcılıq sahəsinə həvəs yaradır. Çətinliklərə baxmayaraq, düşünür ki, uşaqların bacarığını aşkar etmək, üzə çıxarmaq onun üçün əsl mükafatdır.

Bu yaxınlarda təsadüf nəticəsində öyrəndim ki, Fəridə xanım düşüncələrini, qəlbinin sirlərini təkcə rəsm çəkməklə deyil, həm də şeirlə ifadə edirmiş. Bu da ona irsən keçən bir qabiliyyətdir desəm, səhv etmərəm. Axı, o, bənzərsiz muğam ifaçısı, şair Hacıbaba Hüseynovun qızıdır. Fəridə xanımın şeirlərindən bəzi nümunələri də sizə təqdim edirik.

Mədinə RZAYEVA,
məktəbin müəllimi



Fəridə Hüseynova

NƏ OLARDI...

Nə olardı, qaya kimi
Bir dost arxa olaydı.
Bir saf ürək, bir xoş niyyət,
Bir da bahar olaydı.

Nə olardı, şeir-nəğmə,
Qanadlanıb hər ürəyə qonaydı.
Nə olardı, bu arzular,
Dönüb gerçək olaydı...

BƏNÖVŞƏ

Sənin incə baxışın
Ürəklərə nur saçır.
Təravətli nəfəsin
Bağlı qapılar açır.

Quşlar başının üstə
Sənə nəğmələr qoşur.
Çaylar dözə bilməyib,
Sevgidən coşub-daşır.

Artıq boynunu bükmə,
Sənin baharın gəlir.
Bax ümidlə günəşə,
Sənin dövranın gəlir.

Oyan qış yuxusundan,
Yolunu gözləyən var.
Sil gözünün yaşını,
Sənə şeir yazan var.

ƏDƏBİYYAT LÜĞƏTİ

Gəlin, öyrənək!

SAQA – əfsanəvi qəhrəmanlar və tarixi şəxsiyyətlər barədə qədim Skandinaviya və İrlandiya xalq yaradıcılığında epik hekayət. Saqalar mənzum parçalarla növbələşən nəsr şəklində olur. Skandinaviya "Edda"sı saqaya ən yaxşı misaldır.

SAQİNAMƏ – klassik şərq, eləcə də Azərbaycan şeirində lirik janrda yazılan əsərlərdən biri. Qəsidə, qəzəl və başqa formalarda yazılan əsərlərin bir qismində müəlliflər ictimai - fəlsəfi, yaxud incə duyğularını saqi (məclisdə şərab paylayan) ilə əlaqədar bir şəkildə ifadə edirlər. Bu üsulla yaranan əsər saqinamə adlanır.

SALNAMƏ – müəllifin şəxsən şahidi, yaxud iştirakçısı olduğu tarixi hadisələrin təsvirindən ibarət olan əsər, salnamələr Şərqdə, əsasən, nəzmlə yazılıb. Nəsrlə yazılan salnamələr də az deyil.

SATİRA – şeir, hekayə, povest, roman və s. növlərdə olmaqla ictimai həyatdakı mənfilikləri ifşa etmək satiranın başlıca xüsusiyyətidir. Satira ifşaedici və islahedici olur. Islahedici satira "yumor" adlanır.

SAYAÇI SÖZLƏRİ – əmək nəğmələri sırasına daxil olan sayaçı sözləri qoyunçuluq təsərrüfatı ilə bağlıdır. Formaca bayatı şəklində olur. Məzmununa görə ənənəvi bayatılardan, holavarlardan seçilir.

SEKİSTİNA – rus və Qərbi Avropa ədəbiyyatında altı bənddən və hər bəndi altı misradan ibarət şeir növü. Sekistinanın hər bəndindəki altı misranın dörd misrası bir cür, son iki misrası isə başqa cür qafiyələnir.

SENTİMENTALİZM – XVIII yüzilliyin ikinci yarısında Avropa və Amerika ədəbiyyatı və incəsənətində yaranmış ədəbi cərəyan. Sentimentalizmdə həyat məsələləri, insan münasibətlərinin sadəliyi, səmimiliyi ön plana çəkilir.

SEPTİMA – rus poeziyasında yeddi misralı bənd. Nadir şeir nümunəsi sayılır. Qafiyə quruluşu belədir: ***aabcccb***. Üçüncü və yeddinci misralar həmqafiyə, amma qısa olur.

SƏC – öz - özlüyündə qafiyələnmə deməkdir. Səc daxili qafiyələnmə prinsipi ilə qurulur. Həm şeirlə, həm də nəsrlə olur.

SƏFƏRNAMƏ – yazıçının səyahət, yaxud səfər zamanı gördüklərini əks etdirən bədii-sənədli əsər.

SƏRBƏST ŞEİR – Azərbaycan ədəbiyyatında işlənən üç şeir vəznindən biri. Sərbəst şeir misralarındakı heca, durğu və qafiyələrin sayına, yerinə görə çox sərbəst olur. Sərbəst şeirin özünəməxsus qafiyə sistemi, qafiyələnmə qaydası, ahəngi, axıcılığı vardır.

SƏYAHƏTNAMƏ – epik janrda yaradılıb, müəyyən səyahəti əks etdirən bədii əsər. Səyahətnamədə əhvalat birinci şəxsin dilindən söylənilir. Bu, bəzən də gündəlik şəklində olur. Səyahətnamənin elmi - kütləvi, elmi - fantastik, macəralı, sənədli növləri vardır.

SİCİLİANA – qədim italyan şeir forması. Səkkiz misralı bəndlərdən ibarət olur. Qafiyə quruluşu belədir: ab,ab,ab,ab.

SİMVOLİZM –XIX yüzilliyin sonu - XX yüzilliyin əvvəllərində Fransa və Rusiyanın zadəgan - burjua ədəbiyyatında ortaya çıxan ədəbi cərəyan. Oxucunu dövrün mühüm məsələlərindən uzaqlaşdırmaq, ədəbiyyatın sosial vəzifələrini inkar etmək, həyata nifrət hissinin təsviri, bədii formada məzmunsuz, mənasız təmtəraq dalınca qaçmaq cəhdləri simvolizmin səciyyəvi xüsusiyyətləridir.

SONET – lirik şeir forması. On dörd misradan ibarət olur. Quruluşca mürəkkəb formalı sayılır. Hər bir sonet nümunəsi iki hissəyə ayrılır. Birinci hissə hərəsi dörd misralıq iki bənddən, ikinci hissə isə hərəsi üç misralıq iki bənddən ibarət olur. Birinci və ikinci bəndlərə *katren*, üçüncü və dördüncü bəndlərə *terset* deyilir.

SSENARİ – dramaturji əsərin planı; kino sənətinin xüsusiyyətlərini nəzərə alaraq yazılan ədəbi əsərə – kinopyesə ssenari deyilir.

SURNAMƏ – ziyafət, toy-düyün, şənlik kimi məclisləri təsvir etmək üçün yazılan əyləncəli mənzum və mənsur əsər.

SÜJET – bir-biri ilə bağlı olub, ardıcıl surətdə inkişaf (başlanğıcdan nəticəyə qədər) edən və bilavasitə epik, lirik-epik, yaxud dramatik əsərin məzmununu təşkil edən həyat hadisələri.

Hazırlayanı:
Bəhlul ABDULLA

XƏZƏR UNİVERSİTƏSİ

11-ci sinif şagirdləri arasında dəqiq elmlər üzrə

OLİMPİADA

keçirir. Olimpiada riyaziyyat,
fizika və kimya fənlərini əhatə edən
vahid tapşırıqlar əsasında aparılacaqdır.

Olimpiadanın qalibləri **"Neft mühəndisliyi"** ixtisası üzrə Xəzər Universitəsinə qəbul olunduqda **BP və digər şirkətlərin** sponsorluğu ilə təhsil haqqından azad olmaq, təqaüd almaq, təhsillərini xaricdə davam etdirmək və xarici neft şirkətlərində işləmək imkanı əldə edəcəklər.

Ayrı-ayrı fənlər üzrə qaliblər digər uyğun ixtisaslara qəbul olunduqda onlara təhsil haqqının ödənilməsində güzəştlər ediləcək.

Olimpiada 2 may 2009-ci il saat 16:00-da keçiriləcək.

Unvan: Bakı şəhəri, Məhsəti küç. 11, Xəzər Universitəsi
(*"Neftçilər"* metrosunun yaxınlığında)
tel: 421-79-16, 421-10-93

Əziz şagirdlər!

Sizi Olimpiadaya dəvət edirik.

Gələcək şansınızı əldən buraxmayın!

KHAZAR VIEW

XƏZƏR XƏBƏR

Öz ciddi məzmunu və rəngarəngliyi ilə seçilən
"Xəzər Xəbər" toplusu yenə sizin görüşünüzə gəlib.
"Xəzər Xəbər"də Azərbaycan, rus, ingilis,
türk və başqa dillərdə dərc olunan maraqlı xəbərlər,
ali və orta təhsil haqqında yeniliklər,
poeziya və ədəbiyyat səhifələri, məzəli əhvalatlar,
elmi əsərlər, siyasətə, mədəniyyətə, idmana aid yazılar, qəribə
sevgi macəraları, uşaq yaradıcılığı, maraqlı yarışlar -
müsabiqələr və s. könlünüzcə olacaq.
"Xəzər Xəbər" gənclərin və oxuyan,
düşünən hər kəsin dərgisidir.
"Xəzər Xəbər"i İNTERNET vasitəsilə dünyanın
hər yerində oxuyurlar.
"Xəzər Xəbər"i siz də oxuyun!
"Xəzər Xəbər"ə siz də yazın!
"Xəzər Xəbər"i şəhərimizdəki qəzet-jurnal
köşklərindən ala bilərsiniz.
"Xəzər Xəbər" ayda iki dəfə çıxır.

Ünvan: Bakı şəhəri,
Məhsəti küçəsi, 11.
Əlaqə telefonları: 421-79-16
421-10-93.
E-mail: xazarxabar@khazar.org